19 iyun 2019 №43 (1628)

www.medeniyyet.az

# MƏDƏNİYYƏT

Azərbaycan Respublikası Mədəniyyət Nazirliyinin nəşri

Qəzet 1991-ci ilin yanvarından çıxır

## Əməkhaqlarının artırılması haqqında sərəncamlar imzalanıb

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev iyunun 18-də minimum aylıq əməkhaqqının artırılması haqqında sərəncam imzalayıb. Sərəncama əsasən, 2019-cu il sentyabrın 1-dən minimum aylıq əməkhaqqının məbləği 250 manat müəyyən edilir.

Nazirlər Kabinetinə Azərbaycan Respublikası Prezidentinin aktları ilə müəyyən olunmuş dövlət büdcəsindən maliyyələşdirilən sahələrdə çalışan işçilərin aylıq tarif (vəzifə) maaşlarının məbləğlərinin bu sərəncama uyğunlaşdırılmasına dair təkliflərini üç ay müddətində hazırlayıb Azərbaycan Respublikasının Prezidentinə təqdim etmək, Nazirlər Kabinetinin aktları ilə müəyyən olunmuş dövlət büdcəsindən maliyyələşdirilən sahələrdə çalışan işçilərin aylıq tarif (vəzifə) maaşlarının məbləğlərini bir ay müddətində bu sərəncama uyğunlaşdırmaq tapşırılıb.

Prezident həmçinin dövlət büdcəsindən maliyyələşən bir sıra təşkilatlarda çalışan işçilərin, bir sıra dövlət qurumlarında, dövlət ümumi təhsil və peşə təhsili müəssisələrində çalışanların əməkhaqqının artırılması haqqında da sərəncamlar imzalayıb.

## Mədəniyyət naziri ABŞ nümayəndə heyəti ilə görüşüb

Mədəniyyət naziri Əbülfəs Qarayev Amerika İrsinin Xaricdə Mühafizəsi üzrə Amerika Birləşmiş Ştatları Komissiyasının katibi Pol Pakerin rəhbərlik etdiyi nümayəndə heyəti ilə görüşüb.

Görüşdə Azərbaycan Respublikası ilə Amerika Birləşmiş Ştatları arasında mədəniyyət sahəsində əlaqələrin yüksək səviyyədə olduğu, kitabxana, muzey, abidələrin mühafizəsi, qarşılıqlı mədəniyyət tədbirlərinin keçirildiyi qeyd edilib.

Azərbaycanın müxtəlif millətlərin və dinlərin sülh içində birgəyaşama nümunəsi olduğunu qeyd edən nazir ölkəmizdə keçirilən Dünya Mədəniyyətlərarası Dialoq Forumu barədə qonaqlara məlumat verib və ABŞ-ın bu tədbirdə ənənəvi olaraq yüksək səviyyədə iştirakına əminliyini bildirib. Nazir həmçinin Azərbaycan Hökumətinin təşkilati dəstəyi ilə hər ilin may ayında ABŞ-da keçirilən Qafqaz Mədəniyyəti Festivalı və bu ölkədə Azərbaycanın zəngin mədəni irsinin təqdimatına dair müxtəlif tədbirlərin keçirildiyini qeyd edib.

Pol Paker rəhbərlik etdiyi komissiyanın fəaliyyəti barədə məlumat verib, ölkəmizlə əməkdaşlığa maraqlı olduqlarını ifadə edib.

Görüşdə iştirak edən STMEGI Fondunun prezidenti German Zaxaryayev və Dağ Yəhudiləri Muzeyinin icraçı direktoru İqor Şaulov tərəfindən Quba şəhərində dağ yəhudilərinin yığcam yaşadığı Qırmızı Qəsəbədə Dağ Yəhudiləri Muzeyinin artıq hazır olduğu barədə məlumat verilib. Nazir muzeyin yekun tərtibatına dair tövsiyələr və açılışın təşkilinə dair tapşırıqlar verib.

Görüşdə gələcəkdə həyata keçirilə biləcək layihələr müzakirə olunub, mövcud geniş potensialdan səmərəli istifadə etməklə əlaqələrin daha da inkişaf edəcəyi bildirilib.

## "Bölgələrdən bölgələrə" yaradıcılıq festivalına yekun vuruldu

İyunun 18-də paytaxtın Xəzər rayonunun Mərdəkan Mədəniyyət sarayında "Bölgələrdən bölgələrə" II Yaradıcılıq Festivalının yekun tədbiri keçirildi. Tədbirdə mədəniyyət naziri Əbülfəs Qarayev, nazir müavinləri, bir sıra rayonların icra hakimiyyətinin rəhbərləri, regional mədəniyyət idarələrinin rəisləri və mədəniyyət işçiləri iştirak edirdilər.

Qonaqlar əvvəlcə Mədəniyyət sarayının həyətində regional idarələrin çadır-guşələri – xalq sənətkarlıq nümunələrinin, rəssamların əl işlərinin sərgi-yarmarkası ilə tanış oldular. Sərgi regional mədəniyyət idarələrinin əhatə etdiyi şəhər və rayonların sənətkarlıq, mədəni irs və incəsənətini əks etdirirdi.

Mədəniyyət sarayının foyesində isə "Nəsimi ili" və dahi şairin 650 illiyinə həsr olunmuş sərgi qurulmuşdu. Burada İmadəddin Nəsiminin əsərlərinin müxtəlif nəşrləri, onun haqqında kitablar, mütəfəkkir şairin əks olunduğu rəsm əsərləri yer almışdı.

Mərasimdə çıxış edən mədəniyyət naziri Əbülfəs Qarayev nazirliyin təşəbbüsü ilə reallaşan "Bölgələrdən bölgələrə" yaradıcılıq festivalının əhəmiyyətini yüksək qiymətləndirdi. Dedi ki, regionlararası əlaqələrdə mədəniyyətin xüsusi rolu var.



Qeyd olundu ki, ulu öndər Heydər Əliyev ölkəmizə rəhbərliyinin hər iki dövründə mədəniyyətə xüsusi diqqət və qayğı ilə yanaşıb. Bu siyasət Prezident İlham Əliyev tərəfindən uğurla davam etdirilir. Regionların hərtərəfli inkişafına xüsusi diqqət yetirilir. Birinci vitse-prezident Mehriban xanım Əliyevanın qayğısı sayəsində bu gün mədəniyyətimiz və mədəni irs nümunələrimiz beynəlxalq aləmdə tanıdılır, təbliğ edilir: "Mədəniyyətimizi yaşatmaq və gələcək nəsillərə ötürmək üçün bu sahədə çalışanlar da öz töhfələrini verirlər. "Bölgələrdən bölgələrə" yaradıcılıq festivalı da bizim bu missiyaya töhfəmizdir".

davamı səh. 2-də

## Rəssamlarımızın əsərlərinin satış-sərgisi açılıb

İyunun 14-də "Baku Cristall Hall"da Mədəniyyət Nazirliyi, Azərbaycan Dövlət Rəsm Qalereyası və Rəssamlar İttifaqının təşkilatçılığı ilə Azərbaycan rəssamlarının əsərlərinin Respublika satış-sərgisinin açılış mərasimi keçirildi.

Ölkəmizdə ilk dəfə təsviri sənət əsərlərinin belə geniş miqyaslı satış-sərgisinin təşkilinin ideya müəllifi dünya şöhrətli sənətkarımız, SSRİ Xalq rəssamı Tahir Salahovdur. Bu il martın 1-də dövlət başçısı İlham Əliyev və Birinci vitse-prezident Mehriban xanım Əliyevanın tanınmış mədəniyyət xadimlərinin bir qrupu ilə görüşündə milli təsviri sənət məktəbinin ağsaqqalı Tahir Salahov ölkə miqyaslı belə bir sərginin keçirilməsini təklif etmişdi. Göründüyü kimi, həmin tarixi görüşdə doğulan ideyanın həyata keçirilməsi üçün o qədər də böyük vaxt gərək olmadı. Təşkilatçıların səyi nəticəsində qısa müddətdə ən müxtəlif cərəyan və üslubları əhatə edən sərgi gerçəkləşdi.

davamı səh. 4-də



## III Respublika Xalq Teatrları Festivalının final mərhələsi keçiriləcək

"Azərbaycan Xalq Yaradıcılığının 2019-2023-cü illər üzrə inkişafına dair Strateji Fəaliyyət Planı"na müvafiq olaraq 23-25 iyun tarixində Bakı şəhərində III Respublika Xalq Teatrları Festivalının final mərhələsi, bağlanış mərasimi və I Respublika Xalq Teatrları Konfransı keçiriləcək.

Ölkəmizdə, o cümlədən Naxçıvan Muxtar Respublikasında 37 xalq teatrı kollektivi fəaliyyət göstərir. Əhalinin asudə vaxtının təmin olunması, istedadlı şəxslərin yetişdirilməsi, onların bədii yaradıcılığının inkişaf etdirilməsində bu kollektivlərin əhəmiyyəti rolu var.

Bu ilin aprel ayı ərzində Bakı şəhəri və respublikanın bölgələrində III Respublika Xalq Teatrları Festivalının seçim mərhələsi keçirilib. Həmin mərhələdə uğurla çıxış etmiş



İsmayıllı, Qəbələ, Beyləqan, Zaqatala, Şabran, Masallı, Şərur, Füzuli, Yevlax, Mərdəkan, Qax, Bərdə, Cəlilabad xalq teatrları final mərhələsinə dəvət edilib. Final mərhələsi üçün Mədəniyyət Nazirliyinin müvafiq əmri ilə müəyyən edilmiş münsiflər heyəti tərəfindən mükafatçılar, o cümlədən müxtəlif həvəsləndirici nominasiyalar üzrə qaliblər seçiləcək.

Festivalın final mərhələsində tamaşalar 23 iyunda R.Behbudov adına Azərbaycan Dövlət Mahnı Teatrında, iyunun 24-də Dövlət Gənc Tamaşaçılar Teatrında nümayiş olunacaq. Bağlanış mərasimi 24 iyun saat 17-də Gənc Tamaşaçılar Teatrında keçiriləcək.

Festival çərçivəsində iyunun 25-də Muzey Mərkəzində Mədəniyyət üzrə Elmi-Metodiki və İxtisasartırma Mərkəzi ilə birgə I Respublika Xalq Teatrları Konfransı təşkil ediləcək. Tədbirdə nazirliyin əməkdaşları, Bakı Şəhər Mədəniyyət Baş İdarəsi, regional mədəniyyət idarələrinin nümayəndələri, peşəkar teatrların rəhbərləri, xalq teatrları kollektivlərinin rejissor və bədii rəhbərləri, aktyorları, habelə bu sahə üzrə ixtisaslaşmış mütəxəssislər iştirak edəcəklər.



## "Bakı Yay Caz Günləri" başa çatıb

Paytaxtımızda keçirilən "Baku Summer Jazz Days" ("Bakı Yay Caz Günləri") festivalı bir-birindən maraqlı təqdimatlarla yadda qalıb. Festival çərçivəsində Beynəlxalq Muğam Mərkəzinin səhnəsində təqdim olunan konsertlər alqışlarla qarşılanıb.

Festivalın növbəti caz gecəsində Gürcüstanın "İRİAO" etno-caz qrupu və Avropada ən gənc və populyar fank-caz ifaçılarından olan Tom İbarranın kvinteti çıxış edib.

"Bakı Yay Caz Günləri" festivalı Rusiyanın məşhur caz heyətlərindən biri – Oleq Lundstrem adına Caz orkestrinin konserti ilə başa çatıb.

səh. 7

## "Onun təkcə yeri yox, özü də həmişə görünəcək..."

İyunun 14-də Dövlət Film Fondunda Azərbaycan teatr və kino sənətinin tanınmış nümayəndəsi, Xalq artisti, Dövlət mükafatı laureatı Amaliya Pənahovanın (1945-2018) anadan olmasının 74-cü ildönümünə həsr edilmiş xatirə gecəsi keçirildi. Tədbirdə görkəmli aktrisanın yaxınları, sənət dostları, mədəniyyət xadimləri, digər qonaqlar iştirak edirdi.

Əvvəlcə Xalq artistinin həyat və fəaliyyətindən bəhs edən videoçarx nümayiş olundu.

Xatirə gecəsini Azərbaycan Respublikası Kinematoqrafçılar İttifaqının icraçı katibi, Əməkdar incəsənət xadimi Cəmil Quliyev açaraq sənətkarın milli kino və teatr sənətimizin inkişafında xidmətlərindən danışdı: "Mən bugünkü xatirə gecəsini belə adlandırardım: zaman, sənət və əbədiyyət. Çünki Amaliya xanım zamanın çətin və mürəkkəb yollarından şərəflə çıxıb. O, doğrudan da, sənət fədaisi və vurğunu idi. Bu gün aramızda olmasa da, milyonlarla tamaşaçının qəlbində yaşayır və gələcəkdə də yaşayacaq".

davamı səh. 6-da

## "Unudulmayanlar" layihəsində xanəndə Mirzə Məhəmmədhəsən yad edilib

Beynəlxalq Muğam Mərkəzinin "Unudulmayanlar" layihəsinin növbəti buraxılışı Şirvan muğam məktəbinin görkəmli nümayəndəsi Mirzə Məhəmmədhəsənə həsr edilmişdi.

Bildirildi ki, XIX əsrin ortalarında Şamaxıda dünyaya gələn Mirzə Məhəmmədhəsən Fələkzadə (Şirvani) şəhərdəki musiqi məclisinin yaradıcısı Mahmud Ağanın yetirməsi olub.

Mədrəsə təhsili alan Mirzə Məhəmmədhəsən ərəb və fars dillərini səlis bilib, muğam ifaçılığı sənətində öz dəstxətti ilə seçilib. Xanəndə Cənubi Qafqazın bir çox yerlərində öz sənəti ilə tanınıb.

səh. 5

Nəsiminin qəzəllər toplusu Moskvada işıq üzü görüb



səh. 3

Mədəniyyət müəssisələrində Milli Qurtuluş Gününə həsr edilən silsilə tədbirlər

səh. 3



VII Muğam Televiziya Müsabiqəsinin qalibləri elan olundu

səh. 5

№43 (1628)
19 iyun 2019
www.medeniyyet.az

# “Bölgələrdən bölgələrə” yaradıcılıq festivalına yekun vuruldu

## “Festival mədəniyyətimizi yaşatmaq və gələcək nəsillərə ötürmək missiyasına töhfəmizdir”

*əvvəli səh. 1-də*

Diqqətə çatdırıldı ki, regionlararası mübadilədə mühüm əhəmiyyət kəsb edən festival Mədəniyyət Nazirliyinin 15 regional idarəsinin şəhər və rayonlarında gerçəkləşib. Bu tədbirlərdə nazirliyin regional idarələri tərəfindən qurulan festival çadırları yerli sakinlərin və qonaqların marağına səbəb olub. Yerli icra orqanlarının da dəstəyi ilə reallaşan layihə ölkəmizin bütün regionlarını əhatə etməklə onların mədəni zənginliyi və sənətkarlıq irsi ilə bir festival meydançasında tanış olmaq imkanı yaradıb.

Nazir festivalın təşkilində dəstəyinə görə Balakən, Xaçmaz, Ağcabədi, Tərtər və Lerik rayonlarının icra hakimiyyətlərinin başçılarına mükafatlar təqdim etdi. Gəncə, Sumqayıt, Kürdəmir, Ağcabədi, Biləsuvar, Ağdaş regional mədəniyyət idarələrinin rəislərinə və informasiya dəstəyinə görə AZƏRTAC və Azərbaycan Televiziyasına nazirliyin fəxri fərmanları verildi.

Əbülfəs Qarayev bir daha festivalın keçirilməsində əməyi olan hər kəsə öz minnətdarlığını bildirdi, onlara gələcək fəaliyyətlərində uğurlar arzuladı.

Daha sonra regional mədəniyyət idarələrini təmsil edən və festivalda fərqlənmiş musiqi kollektivləri və incəsənət ustalarının iştirakı ilə konsert proqramı təqdim olundu.

Qeyd edək ki, Mədəniyyət Nazirliyinin təşəbbüsü, nazirliyin regional idarələrinin iştirakı ilə bu il ikincisi gerçəkləşən festival proqramında ümumilikdə 65 şəhər və rayon iştirak edib. Festivala martın 28-də Gəncə şəhərində start verilib. Festival daha sonra 29 mart tarixində Ağstafa, 5 apreldə Ağdaş, 11 apreldə Saatlı, 12 apreldə Neftçala, aprelin 17-də Ağcabədi, aprelin 18-də Tərtər, 25 apreldə Xaçmaz, 26 apreldə Abşeronda (Xırdalan şəhəri) gerçəkləşib. Festival tədbirləri 2 may tarixində Lerik, 3 mayda Masallı, 10 mayda Kürdəmir, 11 may tarixində Şəmkir, 16 mayda Şamaxı və 21 mayda Balakən rayonlarında keçirilib.









Festival çərçivəsində 80-ə yaxın musiqi kollektivi (folklor, rəqs, musiqi ansamblı, xor və s.), 50-dən çox incəsənət ustası müxtəlif janrlar üzrə (muğam, aşıq musiqisi, estrada, instrumental, vokal ifa və s.) çıxış edib, xalq sənətkarlıq nümunələri, rəssamların əl işlərinin sərgi-yarmarkaları təşkil olunub.

Xatırladaq ki, 2018-ci ilin yayında Mədəniyyət Nazirliyinin təşəbbüsü ilə keçirilən “Bölgələrdən bölgələrə” ilk yaradıcılıq festivalı Azərbaycan Xalq Cümhuriyyətinin 100 illiyinə həsr olunmuşdu.

**LALƏ**

# “İntermuzey” beynəlxalq festivalı başa çatıb

Xəbər verdiyimiz kimi, Rusiya paytaxtında ənənəvi “İntermuzey” Beynəlxalq muzeylər festivalı keçirilib. Moskvada “Manej” Mərkəzi Sərgi Zalında gerçəkləşən sayca 21-ci “İntermuzey” festivalında ölkəmiz də təmsil olunub. Builki muzey forumunun başlıca mövzusu “Peşəkarların dialoqu” olub.

Mədəniyyət Nazirliyinin dəstəyi ilə beynəlxalq tədbirdə Azərbaycan Xalça Muzeyi və Qara Qarayevin ev-muzeyi iştirak edib.

Azərbaycan Xalça Muzeyinin guşəsində xovlu və xovsuz xalça nümunələri, öz nəşrləri nümayiş etdirilib, xovsuz xalça olan zilinin toxunması üzrə ustad dərsi keçirilib. Qara Qarayevin ev-muzeyi tədbirdə görkəmli bəstəkarın həyat və fəaliyyətinə həsr olunmuş film, kitab və notları təqdim edib. Ölkəmizin stendi festival iştirakçıları və qonaqlar tərəfindən böyük maraqla qarşılanıb.



Festival çərçivəsində keçirilən elmi konfransda Xalça Muzeyinin baş mütəxəssisi Aynur Məmmədova “Azərbaycan Xalça Muzeyi kolleksiyalarının zənginləşdirilməsi metodları” mövzusunda məruzə ilə çıxış edib.

Tədbirin sonunda hər iki muzey Rusiyanın Mədəniyyət Nazirliyi tərəfindən diplomla təltif edilib.

# Daşkənddəki iki mərkəz arasında memorandum imzalanıb

Daşkənddəki Heydər Əliyev adına Azərbaycan Mədəniyyət Mərkəzinin (AMM) layihəsi ilə keçirilən “Azərbaycan mədəniyyət və ədəbiyyatı günləri” çərçivəsində son layihə olaraq “Turon” Kitabxana-İnformasiya Mərkəzi ilə əməkdaşlıq haqqında memorandum imzalanıb.

Sənəddə birgə layihələrin icrası, müxtəlif tədbirlərin keçirilməsi, Azərbaycan və Özbəkistanın mədəniyyətinin, ədəbiyyatının qarşılıqlı təbliği, elmi və mədəni irsinin öyrənilməsi, qarşılıqlı olaraq konfrans, seminar, müsabiqə və festivallarda iştirak, Azərbaycan dilinin öyrənilməsi imkanının yaradılması, kitabxanalar arasında təcrübə və kitab mübadiləsinin həyata keçirilməsi və s. tədbirlər nəzərdə tutulur.

Memorandumu Azərbaycan Mədəniyyət Mərkəzinin direktoru Samir Abbasov və “Turon” İnformasiya-Kitabxana Mərkəzinin direktoru Dildora Abduəzizova imzalayıb.

# Dağıstanda festivalda Azərbaycan mədəniyyəti bayramı

İyunun 28-dən iyulun 5-dək Rusiya Federasiyasının Dağıstan Respublikasında “Dağlılar” IX Beynəlxalq Folklor və Ənənəvi Mədəniyyət Festivalı keçiriləcək. 2004-cü ildə əsası qoyulan festival 2012-ci ildən UNESCO-nun beynəlxalq folklor layihələri təqviminə daxil edilib.

Builki festivalda Azərbaycan, Çexiya, Slovakiya, Serbiya, İran, Hindistan və Qazaxıstandan yaradıcı kollektivlər və Dağıstan Respublikasının 50-dən çox folklor kollektivinin iştirakı gözlənilir.

“Dağlılar” festivalının proqramında iştirakçı ölkələrin xüsusi mədəniyyət tədbirləri, o cümlədən “Oxu, aşıq!” aşıq mahnısı festivalı, “Sevinc” Azərbaycan mədəniyyəti bayramı, “Ənənələr teatrı” xalq özfəaliyyət teatrları festivalı, “Xəzər – dostluq sahilləri” Xəzər donanması festivalı, Dağıstanın şəhər və rayonlarında səyyar konsertlər və bayram şənlikləri nəzərdə tutulub.

# “Azərbaycan ədəbiyyatı tarixi”nin birinci cildi təqdim edilib

AMEA-nın Nizami Gəncəvi adına Ədəbiyyat İnstitutunda bir neçə ildir ki, oncildlik “Azərbaycan ədəbiyyatı tarixi”nin hazırlanmasına başlanılıb. İyunun 18-də “Azərbaycan ədəbiyyatı tarixi” çoxcildliyinin birinci cildinin təqdimatı keçirilib.

AMEA-nın vitse-prezidenti, Ədəbiyyat İnstitutunun direktoru, akademik İsa Həbibbəyli fundamental “Azərbaycan ədəbiyyatı tarixi” kitabının birinci cildinin yeni elmi konsepsiya ilə hazırlanma zərurətindən danışıb. Bildirib ki, kitab AMEA-nın Ədəbiyyat, Folklor, Dilçilik institutları, Bakı Dövlət Universiteti və Azərbaycanda Atatürk Mərkəzinin birgə əməkdaşlığı sayəsində işıq üzü görüb. Kitabın hazırlanmasında üç prinsip – elmi, ümummilli və dövlətçilik prinsipləri əsas götürülüb.

“Azərbaycan ədəbiyyatı tarixi”nin birinci cildinin məsul redaktoru, filologiya üzrə elmlər doktoru, professor Məhərrəm Qasımlı məruzə ilə çıxış edərək kitab haqqında ətraflı məlumat verib. O, nəşrdə ümumtürk etnocoğrafiyasının nəzərə alındığını, milli istiqlal düşüncəsinə xüsusi yer ayrıldığını bildirib. Qeyd olunub ki, nəşr tarixi-xronoloji aspektdə ilkin olan və yazılı ədəbiyyatın inkişafında əsas mənbə rolunu oynayan şifahi xalq ədəbiyyatına həsr edilib.

AMEA-nın Folklor İnstitutunun direktoru, akademik Muxtar İmanov, Azərbaycanda Atatürk Mərkəzinin rəhbəri, akademik Nizami Cəfərov, professorlar Qəzənfər Paşayev və Qəzənfər Kazımov, nəşrin məsul katibi Aynur Xəlilova, müəlliflərdən Əfzələddin Əsgər çıxış edərək fikirlərini bölüşüblər.




# İlk dövlət muzeyimiz 100 yaşında

## İstiqlal Muzeyinin yubileyinə həsr olunan elmi konfrans

İyunun 18-də AMEA-nın Milli Azərbaycan Tarixi Muzeyində İstiqlal Muzeyinin 100 illiyinə həsr olunan “Muzey, arxiv və kitabxanalarda qorunan milli dəyərlərin tədqiqi, təbliği, mühafizəsi və bərpası” mövzusunda III Respublika elmi konfransı keçirildi.





Tədbiri açan Milli Azərbaycan Tarixi Muzeyinin direktoru, akademik Nailə Vəlixanlı İstiqlal Muzeyinin tarixi, fəaliyyəti haqqında ətraflı məlumat verdi. Bildirdi ki, Azərbaycan Xalq Cümhuriyyətinin mədəniyyət tariximizə bəxş etdiyi töhfələrdən biri də İstiqlal Muzeyinin yaradılmasıdır. Ölkəmizdə ilk rəsmi dövlət muzeyi olan İstiqlal Muzeyi 1919-cu il dekabrın 7-də Xalq Cümhuriyyəti Parlamentinin yaradılmasının ildönümü münasibətilə fəaliyyətə başlayıb.

Qeyd olundu ki, Cümhuriyyət Parlamenti binasında (indiki AMEA-nın Əlyazmalar İnstitutu) fəaliyyət göstərən muzeyə təhvil verilən ilk eksponatların siyahısında Quran əlyazmaları, bəzək əşyaları, ayrı-ayrı dövrlərə aid silahlar, sikkələr, xalq tətbiqi sənəti və qədim məişət nümunələri olub. Təhvil-təslim aktı formasında “Həmişəlik Azərbaycan Parlamanı ixtiyarında olaraq həməlik parlaman imarətində təsis edilən “Müze İstiqlal” adına müəssislər tərəfindən toplanmış olan şeylərin Birinci Parlaman Divani-Rəyasətinə təhvil verilməsi haqqında Şərait” adlı sənəd tərtib edilir. Sənədi muzeyin yaradıcıları – sənətşünaslar Hüseyn Mirzəcamalov, Məhəmməd Ağayev və Azərbaycan Parlamenti sədrinin müavinləri Həsən bəy Ağayev, Sultanməcid Qənizadə imzalayır. Sənəd 1919-cu il noyabrın 6-da, muzeyin açılışı ərəfəsində tərtib olunur.

Vurğulandı ki, beş aya yaxın fəaliyyət göstərən İstiqlal Muzeyi müstəqil Azərbaycan dövlətinin yaratdığı mədəniyyət müəssisəsi kimi tarixdə qalıb. Xalq Cümhuriyyətinin süqutu və Azərbaycanın sovetləşməsindən sonra muzey fəaliyyətini dayandırsa da, bir mədəniyyət müəssisəsi kimi yeni və gələcəkdə yaradılacaq muzeylərin təşkilində təməl rolunu oynayıb. İstiqlal Muzeyinin eksponatları yeni təşkil edilmiş Azərbaycan Dövlət Muzeyinə (indiki Milli Azərbaycan Tarixi Muzeyi) verilib. Sonradan eksponatların bir hissəsi Moskva İnqilab Muzeyinə aparılıb.

Konfransda daha sonra Azərbaycan Dövlət Mədəniyyət və İncəsənət Universitetinin Muzeyşünaslıq kafedrasının dosenti, muzeyşünas Elfira Məlikovanın “Müasir muzey fəaliyyətində yeniliklər”, Bakı Dövlət Universitetinin Mənbəşünaslıq, tarixşünaslıq və metodika kafedrasının müəllimi, tarix üzrə fəlsəfə doktoru Aydın Məmmədovun “Gənc nəslin tarixi yaddaşının formalaşmasında muzeylərin rolu”, Milli Azərbaycan Tarixi Muzeyinin elmi işlər üzrə direktor müavini, tarix üzrə fəlsəfə doktoru Nərgiz Əliyevanın “Milli Azərbaycan Tarixi Muzeyinin XX əsrin 50-ci illər ekspozisiyası quruculuğu” və digər mütəxəssislərin müxtəlif mövzularda məruzələri dinlənildi.

Onu da qeyd edək ki, Azərbaycan İstiqlal Muzeyi respublikamızın müstəqilliyini bərpa etməsi ilə bərabər 1991-ci ildə yenidən təşkil edilib. Hazırda Muzey Mərkəzində fəaliyyət göstərir.

**Savalan FƏRƏCOV**

# Muzey Mərkəzində Mahmud Rüstəmovun fərdi sərgisi

İyunun 21-də Muzey Mərkəzində Mahmud Rüstəmovun “UN/PUBLİSHED” adlı fərdi sərgisinin açılışı keçiriləcək.

Mahmud Rüstəmov 1967-ci ildə Bakıda anadan olub. Ə.Əzimzadə adına Rəssamlıq Məktəbini, Azərbaycan Dövlət İncəsənət İnstitutunun Heykəltəraşlıq fakültəsində təhsil alıb. SSRİ Rəssamlıq Akademiyası nəzdində Yaradıcılıq Emalatxanasının aspirantı olub. 1997-ci ildən Azərbaycan Rəssamlar İttifaqının üzvüdür. Təsviri sənətdə heykəltəraşlıqla yanaşı, rəngkarlıq və qrafika sahəsində də çalışır. Ölkəmizdə və xaricdə (Fransanın Avinyon şəhəri, Berlin) müxtəlif sərgilərdə iştirak edib, müsabiqələrdə mükafatlara layiq görülüb.

Mahmud Rüstəmovun əsərləri 2013-cü ildə Sotheby’s auksionunda, həmçinin bu il mayın 21-də Bakıda keçirilmiş incəsənət əsərlərinin ilk auksionunda satılıb.

Rəssamın son illərdə yaratdığı rəngkarlıq, qrafika, heykəltəraşlıq əsərlərinin nümayiş olunacağı sərgi iyulun 10-dək davam edəcək.

# İrsimizi qoruyaq: sosial, mədəni və ekoloji davamlılıq

## Bakıda Dünya Turizm Təşkilatı İcraiyyə Şurasının 110-cu sessiyası keçirilib

İyunun 16-dan 18-dək Bakıda Birləşmiş Millətlər Dünya Turizm Təşkilatı İcraiyyə Şurasının 110-cu sessiyası keçirilib. Ölkəmiz ilk dəfə təşkilatın bu mötəbər toplantısına ev sahibliyi edib. Xatırladaq ki, bu barədə qərar Dünya Turizm Təşkilatının 2018-ci ildə İspaniyanın San-Sebastian şəhərində keçirilmiş 108-ci sessiyasında qəbul olunmuşdu. Azərbaycan 2001-ci ildə bu quruma üzv olub, 2013-cü ildən təşkilatın İcraiyyə Şurasında təmsil olunur.




"İrsimizi qoruyaq: sosial, mədəni və ekoloji davamlılıq" başlığı altında keçirilən sessiyada 37 ölkədən və 5 beynəlxalq təşkilatdan nümayəndə heyətləri iştirak edib.

Sessiyanın açılış mərasimində Dünya Turizm Təşkilatının baş katibi Zurab Pololikaşvili, təşkilatın İcraiyyə Şurasının sədri Çarls Banda və Azərbaycan Respublikası Dövlət Turizm Agentliyinin sədri Fuad Nağıyev çıxış ediblər.

Qonaqları salamlayan Fuad Nağıyev son illərdə Azərbaycanda turizmin inkişafı üçün atılan addımlar, ölkə xaricində aparılan təbliğat işləri, Azərbaycanın yeni turizm brendi, milli mədəni irsin qorunması üçün görülən tədbirlər barədə məlumat verib. O, turizmdə etik normaların vacibliyindən danışaraq Azərbaycanın işğal olunmuş torpaqlarında mövcud olan mədəni irs nümunələrinin məhv edilməsini, beynəlxalq hüquq normalarının işğalçı Ermənistan tərəfindən kobudcasına pozulması faktını sessiya iştirakçılarının diqqətinə çatdırıb.

Agentlik sədri Dünya Turizm Təşkilatının "Münaqişə zonalarının turizm məkanı kimi və turizmin qanunsuz məqsədlər üçün istifadəsinin qarşısının alınması" qətnamə layihəsi ilə bağlı qərarını yüksək qiymətləndirərək, qərarların tövsiyə xarakterli deyil, məcburi qüvvədə olmasının məqsədəuyğunluğunu bildirib.

Sessiyada "Turizm və davamlılıq", "Yerli səviyyədə davamlılığın artırılması", "Turizm və daxiletmə: sosial ölçü", "Turizm və mədəni qoruma" mövzularında tematik müzakirələr keçirilib.

***

İyunun 17-də Heydər Əliyev Fondunun vitse-prezidenti, İDEA İctimai Birliyinin təsisçisi və rəhbəri Leyla Əliyevanın Dünya Turizm Təşkilatının baş katibi Zurab Pololikaşvili ilə görüşü olub.



Görüşdə İDEA və DTT arasında əməkdaşlığa dair Anlaşma memorandumu imzalanıb. Memorandum tərəflər arasında gələcək fəaliyyət çərçivəsini və əməkdaşlıq sahələrini müəyyənləşdirir. Sənədə əsasən, hər iki təşkilat turizmin ekoloji dayanıqlığa təsir edən amillərdən biri kimi təşviq edilməsi istiqamətində birgə səylər göstərəcək.

Görüşdə Leyla Əliyeva DTT tərəfindən dünyada turizmin inkişafının əlaqələndirilməsi istiqamətində aparılan fəaliyyəti yüksək qiymətləndirərək, turizm sektorunun inkişafının planetin dayanıqlı gələcəyi üçün əhəmiyyətini vurğulayıb. Leyla Əliyeva zəngin mədəni irsi və müasir infrastrukturu ilə yanaşı, Azərbaycanda bol təbii sərvətlər və rəngarəng coğrafi landşaftın mövcud olmasını qeyd edərək, həyata keçiriləcək birgə layihələrin ölkədə ekoturizmin inkişafına böyük töhfə verəcəyindən əminliyini vurğulayıb.

Zurab Pololikaşvili rəhbərlik etdiyi təşkilat ilə İDEA arasında əməkdaşlığın qurulmasından məmnunluğunu bildirərək, Azərbaycanın cəlbedici turizm məkanı kimi potensialının inkişaf etdirilməsi üçün geniş imkanların olduğunu qeyd edib.

# Mədəniyyət müəssisələrində Milli Qurtuluş Gününə həsr edilən silsilə tədbirlər

Azərbaycan xalqının taleyində böyük əhəmiyyət daşıyan elə günlər var ki, həmin günlərdə onun gələcək həyatını müəyyən edən mühüm başlanğıcların əsası qoyulub. Belə günlərdən biri 15 İyun – Milli Qurtuluş Günüdür. Bu, Azərbaycan xalqı üçün təkcə təqvim bayramı deyil, böyük ictimai, siyasi və tarixi əhəmiyyətə malik gündür. 1993-cü ilin 15 iyunu Azərbaycanın müstəqil dövlətçiliyi üçün qurtuluş tarixidir.

Milli Qurtuluş Günü münasibətilə respublikamızın şəhər və rayonlarında Mədəniyyət Nazirliyinin regional idarələrinin təşkilatçılığı ilə silsilə tədbirlər keçirilib. Tədbirlərdə müvafiq region üzrə icra hakimiyyətləri və regional mədəniyyət idarələrinin rəhbərliyi və nümayəndələri, mədəniyyət və təhsil işçiləri, yerli sakinlər iştirak ediblər. Tədbirlərdə Milli Qurtuluş Günü barədə məlumat verilib, bu günün əhəmiyyətindən bəhs olunub, sərgilər, konsert proqramları təqdim edilib.

***




Sumqayıt Regional Mədəniyyət İdarəsinin tabe müəssisələrində Milli Qurtuluş Günü münasibətilə tədbirlər təşkil olunub.

Sumqayıtın Tarixi Muzeyində rəssam Tofiq Əhmədovun fərdi sərgisi nümayiş olunub. N.Nərimanov adına Mədəniyyət Mərkəzində burada fəaliyyət göstərən kurs və dərnəklərin, özfəaliyyət kollektivlərinin konserti keçirilib. Nizami Gəncəvi adına Kitabxana-klubda "Qurtuluşdan başlanan yol" adlı oxucu konfransı keçirilib. C.Cabbarlı adına Mədəniyyət evinin özfəaliyyət kollektivi N saylı hərbi hissədə konsert proqramı ilə çıxış edib.

***

Tovuz Rayon İcra Hakimiyyəti və Ağstafa Regional Mədəniyyət İdarəsinin birgə təşkilatçılığı ilə keçirilən tədbirdə Aşıq Əkbər Cəfərov adına rayon mədəniyyət mərkəzinin özfəaliyyət dərnəyi və Aşıq Əsəd Rzayev adına Uşaq musiqi məktəbi müəllimlərinin hazırladığı bayram konserti təqdim olunub.



***

Xaçmaz Regional Mədəniyyət İdarəsinin tabeliyindəki müəssisələrdə müxtəlif tədbirlər təşkil olunub.

Xaçmaz şəhərindəki Heydər Əliyev Mərkəzində "Müstəqillik qurtuluşdan başlayır" mövzusunda, Quba rayon MKS-nin Mərkəzi kitabxanasında "Heydər Əliyev və azərbaycançılıq məfkurəsi", Qusar rayonundakı Heydər Əliyev Mərkəzində "Qurtuluşdan başlayan tərəqqi", Şabran Tarix-Diyarşünaslıq Muzeyində "Tarixə ehtiram – gələcəyə inam", Siyəzəndəki Heydər Əliyev Mərkəzində "Milli intibaha doğru" adlı tədbirlər keçirilib. Quba rayon Mərkəzi kitabxanasının Uşaq şöbəsinin oxucuları üçün şəhərdəki Heydər Əliyev Mərkəzinə ekskursiya təşkil olunub.

***




Masallı şəhərindəki Heydər Əliyev parkında rayon İcra Hakimiyyəti və N.Gəncəvi adına Mədəniyyət Mərkəzinin birgə təşkilatçılığı ilə konsert proqramı keçirilib. Mədəniyyət mərkəzinin solistləri instrumental ifaçıların müşayiəti ilə mahnılar oxuyublar. Konsertdə tanınmış müğənni İzzət Bağırov, Əməkdar artist Səidə Şərifəliyeva da çıxış edib. "Halay" folklor musiqi və rəqs ansamblının, "Masallı" rəqs qrupunun ifaları da alqışlarla qarşılanıb.

***

Kürdəmir rayon Mərkəzi kitabxanasında "Tariximizin şanlı səhifəsi" adlı tədbir keçirilib. Tədbirdə sənədli film, Uşaq kitabxanası oxucularının ifasında ədəbi kompozisiya və sərgi nümayiş etdirilib.

***

Ağdaş rayon Mərkəzi kitabxanasında 1 saylı şəhər Gənclər kitabxanası ilə birlikdə tədbir keçirilib. Mövzu üzrə çıxışlardan sonra ulu öndər Heydər Əliyevin fəaliyyətindən bəhs edən "Milli qurtuluşdan intibaha" adlı sənədli film nümayiş olunub.

***

Biləsuvar Regional Mədəniyyət İdarəsinin tabeliyindəki Salyan rayon Qarabağlı kənd Diyarşünaslıq evi, Dayıkənd kənd Mədəniyyət evi rayon Mədəniyyət mərkəzi ilə birlikdə əyləncəli konsert proqramları təşkil edib.

***



Bərdə Regional Mədəniyyət İdarəsinin tabeliyində olan Yevlax şəhər 1 nömrəli Uşaq musiqi məktəbinin təşkilində tədbirdə məktəb kollektivi tərəfindən hazırlanmış konsert proqramı təqdim olunub. Tərtər rayon Heydər Əliyev Mərkəzində isə Milli Qurtuluş Günü mövzusunda açıq dərs keçirilib.

***

Zərdab rayon Mərkəzi kitabxanasında Milli Qurtuluş Günü ilə əlaqədar "Açıq kitabxana" təşkil olunub. Tədbirdə 100-dən artıq kitab, jurnallar, disklər və əl işləri nümayiş olunub.

# Mədəniyyətimizin böyük himayədarı

Qədim və zəngin maddi, mənəvi mədəniyyətə malik xalqımız ümummilli lider Heydər Əliyevin mədəniyyət siyasəti nəticəsində öz mənəvi irsi, keçmişi ilə qürur hissi keçirir. Ulu öndər Azərbaycan mədəniyyətinin və mənəviyyatının himayədarı idi. Bu fikirləri Sabirabad Regional Mədəniyyət İdarəsinin rəisi Əhməd Ramazanov bildirib.

İdarə rəisi qeyd edib ki, ulu öndərin hakimiyyətə qayıdışı, bütün sahələrdə olduğu kimi, mədəniyyət və incəsənətimizin inkişafında da əsaslı dönüş yaratdı. Həyat təsdiqlədi ki, Azərbaycan mədəniyyətinin Heydər Əliyev kimi böyük himayədarı, qayğıkeşi olmayıb.

Heydər Əliyev mədəniyyətə, sadəcə, qayğı göstərməklə kifayətlənmirdi. O, hər bir sənət sahibi ilə məhz o sənətinin mahir bilicisi kimi söhbət edirdi. Onun diqqət və qayğısı nəticəsində Azərbaycan mədəniyyəti, sözün həqiqi mənasında, yüksəliş dövrü keçdi. Ulu öndər deyirdi ki, görkəmli şəxsiyyətlər xalqımızın zəkasını, elmini, mədəniyyətini, mənəviyyatını, dünyaya nümayiş etdirirlər. Onları qorumaq hər birimizin borcudur. Ümummilli liderin milli mədəniyyətə, mənəviyyata göstərdiyi münasibət və mövqe hər birimiz üçün böyük məktəbdir.

# "Məşəl kimi yanan ürək"

Bakı Şəhər Mədəniyyət Baş İdarəsinin Bibiheybət qəsəbə Mədəniyyət evi Səbail Mərkəzləşdirilmiş Kitabxana Sisteminin 4 saylı filialının iştirakı ilə Milli Qurtuluş Gününə həsr edilmiş "Məşəl kimi yanan ürək" adlı ədəbi-bədii-musiqili kompozisiya keçirilib.



Əvvəlcə əlamətdar gün barədə tədbir iştirakçılarına məlumat verilib. Daha sonra tədbir Mədəniyyət evinin bədii özfəaliyyət kollektivləri üzvlərinin ədəbi-bədii kompozisiyası ilə davam edib.

# "Taleyin sınağında" sənədli filminin təqdimatı

Daxili İşlər Nazirliyinin Polis Akademiyasında Azərbaycanın Milli Qəhrəmanı Əli Məmmədova həsr olunmuş "Taleyin sınağında" sənədli filminin təqdimatı keçirilib.



Mədəniyyət Nazirliyi və Polis Akademiyasının birgə təşkilatçılığı ilə keçirilən tədbirdə akademiyanın rəisi, polis general-mayoru Nazim Əliyev, nazirliyin əməkdaşı Almaz Sultanzadə, filmin ssenari müəllifi Rəfiqə Budaqlı və rejissoru Taleh İsmayılov çıxış ediblər.

Sonra film nümayiş olunub. Sənədli ekran əsəri 2018-ci ildə dövlət sifarişi ilə "Salnaməfilm" studiyasında istehsal edilib.

Tədbirdə Polis Akademiyasının müəllim və kursantları, Milli Qəhrəman Əli Məmmədovun ailə üzvləri iştirak ediblər.

# Bədii qiraət müsabiqəsi

Yeni Azərbaycan Partiyası (YAP) Pirallahı rayon təşkilatında Azərbaycan ədəbiyyatında ictimai-fəlsəfi şeirləri ilə xüsusi yer tutan, mütəfəkkir şair İmadəddin Nəsiminin anadan olmasının 650 illiyi münasibətilə bədii qiraət müsabiqəsi keçirilib.



Müsabiqədə rayonun ümumtəhsil məktəblərinin yuxarı sinif şagirdləri iştirak edib.

Onların bacarığı münsiflər heyəti tərəfindən qiymətləndirilib. Fəxri fərman və hədiyyələrlə mükafatlandırılan qaliblər respublika müsabiqəsində iştirak edəcəklər.

# Nəsiminin qəzəllər toplusu Moskvada işıq üzü görüb

Dahi Azərbaycan şairi İmadəddin Nəsiminin 650 illik yubileyinə töhfə olaraq Azərbaycan Dövlət Tərcümə Mərkəzi tərəfindən rus dilində ərsəyə gətirilmiş kitab Moskvada nəşr olunub.

Tərcümə Mərkəzindən bildirilib ki, kitaba şairin 200-ə yaxın qəzəl və rübaisi, Nəsimi yaradıcılığını işıqlandıran "Əbədi həqiqətin poeziyası" adlı məqalə, eləcə də Nəsiminin əsərlərində çətin anlaşılan sözlərə dair izah və şərhlər verilib.



Məqalədən sitat: "Böyük Azərbaycan şairi, filosof-mistik, bütün dövrlərin ən məşhur yeddi sufisindən biri. Hələ sağlığında Nəsiminin qəzəl və rübailəri bir çox dillərə tərcümə olunaraq Orta Asiya ərazisində, Türkiyədə və İranda geniş yayılmışdı. Yaradıcılığının ilkin mərhələsində sufizmə meyil edən şair sonradan ustadı – asket və mistik Fəzlullah Nəimi tərəfindən əsası qoyulmuş hürufizmə qoşulur.

Nəsiminin Azərbaycan, o cümlədən türkdilli xalqların ədəbiyyatındakı yeri onun divan poeziyasının formalaşmasında oynadığı rolla müəyyən olunur. Eyni zamanda, onu Azərbaycan fəlsəfi şeirinin banisi də hesab etmək olar. Nəsimi, sözün həqiqi mənasında, mütəfəkkir şairdir, bütün yaradıcılığında dünyanın yaranışı, insan-Tanrı münasibətləri, insanın Tanrının bir zərrəsi, təcəllası olması, onun həyatda, cəmiyyətdə mövqeyi, bu dünyaya təsadüfi deyil, xüsusi missiya ilə gəlməsi vurğulanır".

Moskva Yazıçılar Birliyinin nəşriyyatında çap olunan kitabın tərtibçisi və ön söz müəllifi Püstə Axundovadır.

# Balabanda ifa edir Sylvain Barou

Tanınmış fleyta ifaçısı Sylvain Barou balaban musiqi alətində ifa etməyi öyrənmək üçün Azərbaycana gəlib. Onu Fransanın Normandiya əyalətindən Bakıya gətirən səbəb balaban alətinin sirlərinə dərindən yiyələnmək istəyidir.



Azərbaycanda televiziya verilişinin qonağı olan Sylvain milli musiqimizə olan marağından danışıb, tamaşaçılar üçün canlı ifa da nümayiş etdirib.

O deyib: "Balabana marağım Alim Qasımovun ifasına qulaq asdıqdan sonra yaranıb. Sonra bu alətlə yaxından tanış olmaq və peşəkar musiqiçi kimi yetişməyə qərar verdim. Fransada olarkən bu alətin Azərbaycana məxsus olduğunu bilirdim".

Qonaq yerli ifaçılarla görüşüb milli musiqimizi dərindən öyrənmək arzusundadır.

№43 (1628)
19 iyun 2019
www.medeniyyet.az

# Rəssamlarımızın əsərlərinin satış-sərgisi açılıb

## Mənziliniz üçün eksklüziv sənət əsəri istəyirsinizsə...




*əvvəli səh. 1-də*

Satış-sərgi üçün belə geniş məkanın seçilməsi də təsadüfi deyil. Sərgidə 250 nəfərdən çox təsviri sənət ustasının 350-dən artıq rəsm əsəri, kiçikölçülü heykəltəraşlıq nümunələri nümayiş etdirilir və alıcılara təklif edilir.

Açılış mərasimində çıxış edən mədəniyyət naziri Əbülfəs Qarayev tədbir iştirakçılarını qarşıdan gələn bayram, 15 İyun – Milli Qurtuluş Günü münasibətilə təbrik edərək dedi ki, belə böyük bir sərginin açılışının məhz bu ərəfəyə təsadüf etməsi məntiqə uyğundur: “Ulu öndər Heydər Əliyev daim Azərbaycan rəssamlarının yaradıcılığına xüsusi həssaslıqla yanaşardı. Heydər Əliyevin qayğısı nəticəsində rəssamlarımızın adları nəinki respublika daxilində, bütün SSRİ məkanında, hətta dünya miqyasında tanınırdı. Bugünkü sərgi isə öz mahiyyətinə görə bir qədər fərqlidir. İlk dəfədir ki, biz dövlət səviyyəsində satış-sərgi təşkil etmişik. Sərgi Bakı sakinlərinə, paytaxtımızın qonaqlarına şərait yaradır ki, zövqlərini oxşayan əsərləri öz evləri, ofisləri üçün əldə etsinlər. Diqqətəlayiq haldır ki, burada sərgilənən əsərlərin 90 faizi ilk dəfə nümayiş olunur və Azərbaycan rəssamlarının yaradıcılıq axtarışında olduqlarını, yorulmadan çalışdıqlarını sübut edir”.





Nazir çıxışının sonunda sərgi iştirakçılarına uğurlar arzuladı və layihənin yeni formalaşan kreativ sənayenin inkişafına böyük təkan verəcəyinə əminliyini ifadə etdi: “Dövlət tərəfindən rəssamlarımız üçün bu cür imkanların yaradılması ölkəmizdə yaradıcılıq industriyasının möhkəmlənməsinə və inkişafına kömək edəcək. Arzu edirəm ki, bizim vətəndaşlarımız öz evlərində rəssamlıq nümunələrinin olmasına vərdiş etsinlər”.

Sonra Azərbaycan Rəssamlar İttifaqının sədri, Xalq rəssamı Fərhad Xəlilov çıxış edərək qısa müddətdə belə böyük sərginin hazırlanıb açılması üçün böyük zəhmət çəkmiş Mədəniyyət Nazirliyinin və Azərbaycan Dövlət Rəsm Qalereyasının əməkdaşlarına minnətdarlığını bildirdi. Yaradıcılıq qurumunun rəhbəri əsərləri sərgilənən rəssamlara uğurlar dilədi və gələcəkdə bu sərginin beynəlxalq miqyas qazanmasını arzuladı: “Əgər ilk sərgi belə yüksək səviyyədə təşkil olunubsa, deməli, növbəti sərgilərin dünyanın məşhur rəsm əsərlərinin satış festivalları kimi tanınacağına ümid edə bilərik”.

Azərbaycan Dövlət Rəsm Qalereyasının direktoru Qalib Qasımov dövlət başçısının görkəmli sənət adamları ilə görüşündə Tahir Salahovun irəli sürdüyü ideyanın həyata keçirilməsində icraçı olduqlarını vurğulayaraq söylədi ki, satış-sərgi iyul ayının 2-dək hər gün 12.00-dan 20.00-dək ziyarətçilər və alıcılar üçün açıq olacaq.

***

...Açılışına hələlik potensial alıcılardan daha çox sənət adamlarının və mətbuat nümayəndələrinin toplaşdığı Azərbaycan rəssamlarının əsərlərinin ilk satış-sərgisi tamaşaçıda xoş hislər doğururdu. Paytaxtın ən böyük konsert məkanının özü kimi geniş mətbuat mərkəzində keçirilən bu sərgini çağdaş Azərbaycan rəssamlığının güzgüsü də hesab etmək olar.

Divarlardan asılmış istənilən sənət zövqünə cavab verəcək – klassik Avropa tərzli, milli miniatür sənətimizdən qaynaqlanan, Səttar Bəhlulzadə, Modilyani fırçasından, məşhur əsərlərdən ilhamlanaraq yaradılmış, hətta 3D texnologiyasına meyillənərək qabarıq yaxıdan istifadə olunmuş, abstraksionizm, kubizm cərəyanlarının tələblərinə cavab verən tablolar, tarixi, batal və mənzərə janrlarında rəsmlər, portretlər, natürmortlar, foyedə postamentlər üzərində qoyulmuş keramik, taxta, bürünc və digər materiallardan düzəldilmiş kiçikhəcmli heykəllər öz sahibini gözləyir. Sərgidə əsərləri nümayiş etdirilən rəssamların ən yaşlısı 1928-ci il təvəllüdlü Tahir Salahov və Tofiq Ağababayev, ən gənci isə 1996-cı ildə doğulmuş Elçin Hüseyn olsa da, müəlliflərin böyük əksəriyyəti orta yaş həddindədir. Satış-sərgiyə çıxarılan ən baha əsərlər isə Tahir Salahovun fırçasının məhsulu olan 2 mənzərə-natürmort – “Parlaq səhər. Nardaran” adlı iki 225x150 sm ölçülü tablodur ki, hər birinin qiyməti 400 000 ABŞ dolları müəyyən edilib.

Sərgidə ən müxtəlif qiymətlərə əsərlər təqdim olunur. Yetər ki, sərgiyə maraq göstərənlərin arasında seyrçilərlə yanaşı alıcılar da çox, maddi qazancı müəllif işi almağa imkan verən Azərbaycan insanının sənət zövqü də yüksək olsun. Hər halda ölkəmizdə yaradıcılıq industriyasının inkişafından dolayı istəyimiz və məramımız budur.

**Gülcahan MİRMƏMMƏD**

# Fəxri xiyabanda Arif Məlikovun məzarı ziyarət edilib

İyunun 17-də görkəmli bəstəkar, SSRİ və Azərbaycanın Xalq artisti, Dövlət və Heydər Əliyev mükafatları laureatı, Azərbaycan Milli Elmlər Akademiyasının akademiki Arif Məlikovun (1933-2019) vəfatının 40-cı günü münasibətilə sənətkarın 1-ci Fəxri xiyabanda məzarı ziyarət olundu.



Mərasimdə Arif Məlikovun uzun illər çalışdığı Ü.Hacıbəyli adına Bakı Musiqi Akademiyasının (BMA) əməkdaşları, sənətkarın ailə üzvləri, mədəniyyət və incəsənət xadimləri iştirak edirdilər.

Anım mərasimində çıxış edən Bakı Musiqi Akademiyasının rektoru, professor Fərhad Bədəlbəyli bəstəkarın sənət yolundan danışdı: “Arif Məlikov böyük bəstəkar idi. Onun hər bir əsəri şedevrdir. Xalq musiqisi əsasında böyük simfoniyalar yaratmışdı. Mən əminəm ki, onun ənənələrini gələcəkdə tələbələri layiqincə davam etdirəcək. Xoşbəxtəm ki, onunla birlikdə çalışmışam. Bəstəkarlar dünyasını dəyişsə də, onların musiqisi əbədi yaşayır”.

BMA-nın prorektoru, Əməkdar incəsənət xadimi Gülnaz Abdullazadə Arif Məlikovun ictimai fəaliyyəti haqqında söz açdı. Qeyd etdi ki, görkəmli bəstəkar bir deputat, ictimai xadim kimi Azərbaycan xalqının haqq səsinin dəstəklənməsinə böyük töhfələr verib.

Əməkdar incəsənət xadimi, bəstəkar Ceyhun Allahverdiyev böyük sənətkarın tələbələrindən olması ilə fəxr etdiyini dedi. Bildirdi ki, Arif Məlikov tələbələrinə həmişə qayğıkeş münasibət bəsləyib: “Bəstəkarın musiqisini dinləyərkən, mümkün deyil ki, onun sehrinə düşməyəsən. Bütün əsərləri mükəmməldir. Çünki bu əsərlərin daxilində Arif müəllimin qanı və canı ilə yoğrulmuş böyük bir şəxsiyyətin dühası var”.

Xatırladaq ki, Arif Məlikov 1933-cü il sentyabrın 13-də Bakı şəhərində anadan olub. 1953-1958-ci illərdə Azərbaycan Dövlət Konservatoriyasında (indiki BMA) bəstəkarlıq ixtisası üzrə təhsil alıb. 1960-cı illərdən bu tədris ocağında müəllim, 1979–1986-cı illərdə professor və 1986-cı ildən ömrünün sonunadək bəstəkarlıq kafedrasının müdiri vəzifələrində çalışıb.

Arif Məlikovun musiqi mədəniyyətimizin çoxəsrlik tarixə malik bünövrəsi zəminində və müasir kompozisiya texnikasını mükəmməl mənimsəyib yüksək professionallıqla yaratdığı simfoniya, balet, operetta, kantata, vokal, kamera və instrumental əsərlər misilsiz sənət nümunələri olaraq Azərbaycan musiqi xəzinəsinin qiymətli inciləri sırasında özünə daimi yer tutub. Bəstəkarın “Məhəbbət əfsanəsi” baletinin isə dünyanın tanınmış teatr səhnələrində yarım əsrdən artıq bir dövrdə tamaşaya qoyulması musiqi mədəniyyətimizin möhtəşəm nailiyyətlərindəndir.

Ölkəmizdə musiqiçi kadrların yetişdirilməsinə mühüm töhfələr verən görkəmli bəstəkar 2019-cu il may ayının 9-da vəfat edib.

**NURƏDDİN**

# Sözün qurtuluşundan media azadlığına doğru

Mətbuat Şurasının (MŞ) təşəbbüsü ilə iyunun 14-də “Heydər Əliyev siyasəti: sözün qurtuluşundan media azadlığına doğru” mövzusunda konfrans keçirilib.

Beynəlxalq Mətbuat Mərkəzində gerçəkləşən tədbiri giriş sözü ilə açan MŞ-nin sədri, Milli Məclisin deputatı Əflatun Amaşov bildirib ki, ümummilli lider Heydər Əliyevin 1993-cü ildə hakimiyyətə qayıdışı dövlətimizin qurtuluş tarixidir. Bu, ideoloji bir hadisədir. Çünki Heydər Əliyev xalqı azərbaycançılıq məfkurəsi ətrafında birləşdirdi. Xalqla dövlət arasında möhkəm bağ yaratdı. İnsanlarda dövlətin əbədiyaşarlığına inam formalaşdırdı. Ulu öndərin kütləvi informasiya vasitələrinə diqqət və qayğısı dövlət siyasətində də özünü göstərirdi: “O, jurnalistikanın missiyasına da müstəsna dəyər verirdi. Medianın funksiya və vəzifələrini dövlət idarəçiliyi baxımından uzlaşdırmağı məharətlə bacaran böyük siyasətçi idi”.

Bakı Dövlət Universitetinin Jurnalistika fakültəsinin professoru Cahangir Məmmədli bildirib ki, Heydər Əliyev istər Sovetlər Birliyi dönəmində, istərsə də müstəqillik illərində xalq üçün çalışmaq əzmini ortaya qoymuşdu. Heydər Əliyev əməli addımları ilə xalqın milli mənlik şüurunun qorunmasına çalışırdı. Bu zaman o, medianın roluna əsaslanırdı.

Azərbaycan Respublikasının Prezidenti yanında Kütləvi İnformasiya Vasitələrinin İnkişafına Dövlət Dəstəyi Fondunun icraçı direktoru Vüqar Səfərli qeyd edib ki, 1993-cü ilin 15 iyununda Heydər Əliyevin hakimiyyətə qayıdışı Azərbaycanın gerçək müstəqil dövlətçilik mərhələsinin başlanğıcı idi. Həmin illərdə dövlətçiliyə qəsdlər də olurdu. Ulu öndər bu kimi təhlükəli meyillərin qarşısına həm də mediaya güvənərək çıxırdı. Dövlətin media siyasətinin xüsusiyyətlərindən bəhs edən V.Səfərli bu təməlin məhz Heydər Əliyev tərəfindən qoyulduğunu, Prezident İlham Əliyevin səriştəsi və həssas yanaşması ilə zənginləşdiyini vurğulayıb.




Konfransda digər çıxış edənlər Heydər Əliyevin müəllifi və təşəbbüskarı olduğu nəhəng layihələrin yalnız Azərbaycanın beynəlxalq arenadakı yeri və rolunu müəyyənləşdirmədi, ümumən beynəlxalq siyasətin konturlarını dəyişdiyini vurğulayıb, ulu öndərin media ilə təmaslarında ayrı-ayrı epizodlara toxunub, xatirələrini bölüşüblər.

# “Hərdən uçmaq istəyirəm”

## Yeniyetmə şairin kitablarının təqdimatı



Milli Kitabxanada 10 yaşlı Sevindik Nəsiboğlunun “Dünyamsan, Azərbaycan” və “Hərdən uçmaq istəyirəm” adlı kitablarının təqdimatı olub.

Kitabxananın direktoru, professor Kərim Tahirov tədbiri açaraq belə istedadlı şagirdlərdə elmə, təhsilə, mütaliəyə həvəsin olduğunu görəndə çox sevindiyini, qürurlandığını bildirib. Qeyd edib ki, on yaşlı Sevindik həm mütaliə edir, həm də yazır. Bu yaşda iki şeir kitabının çap olunması çox təqdirəlayiqdir. İllər keçəcək, o bundan daha yaxşı yazacaq, vətəninə, xalqına layiqli bir övlad, vətəndaş olacaq.

Direktor Mədəniyyət Nazirliyi ilə Milli Kitabxananın birgə layihəsi olan “Açıq kitabxana”da tez-tez məktəbli uşaqlarla görüşlərin, gənc yazarların kitab təqdimatlarının keçirildiyini söyləyib, dövlətin gənclərə diqqət və qayğısından danışıb.

ADPU-nun kafedra müdiri, uşaq yazıçısı Zahid Xəlil istedadlı bir yeniyetmənin kitabının təqdimatının keçirilməsində iştirak etdiyinə görə şad olduğunu bildirib. O deyib: “Bu iki kitabı oxudum və gördüm ki, Sevindik ədəbiyyatda addımlarını düz atır, doğru yoldadır. Onun şeirlərində vətənpərvərlik duyğuları yüksəkdir”.

Professor Rafiq Yusifoğlu və digər çıxış edənlər müəllifi hər iki kitabın çap olunması və təqdimatı münasibətilə təbrik ediblər.

# Milli Kitabxanada insan hüquqları mövzusunda sərgi

18 iyun Azərbaycanda “İnsan Hüquqları Günü” kimi qeyd olunur. 1998-ci il iyunun 18-də “İnsan hüquqlarının müdafiəsinə dair Dövlət Proqramı” qəbul olunub. Prezident İlham Əliyevin 2007-ci ildə imzaladığı sərəncamla bu tarix “İnsan hüquqları günü” kimi təsis olunub.

Ölkəmiz insan hüquqları sahəsində əsas beynəlxalq sənədlərə qoşulmaqla yanaşı, onlardan irəli gələn müddəaların həyata keçirilməsi istiqamətində beynəlxalq təşkilatlarla sıx əməkdaşlıq edir. Bu təşkilatların sırasında BMT-nin insan hüquqlarının təşviqi və müdafiəsi sahəsində fəaliyyət göstərən müxtəlif qurumları, ATƏT, Avropa Şurası mühüm yer tutur.

Hər kəsin doğulduğu andan toxunulmaz, ayrılmaz hüquqları və azadlıqları var və bu, şəxsin cəmiyyət və digər şəxslər qarşısında məsuliyyətini, vəzifələrini əhatə edir, vətəndaşın hüquqları şəxsin müəyyən dövlətə məxsusluğu ilə bağlıdır və onlar dövlət tərəfindən müdafiə olunur.

İyunun 18-də Milli Kitabxanada “İnsan hüquqları” adlı kitab sərgisi açılıb. Sərgidə insan hüquq və azadlıqlarının bütün sahələrindən bəhs edən müxtəlif dillərdə nəşr olunmuş kitablar və dövri mətbuat materialları nümayiş olunur.

# “Keşikçidağ” qoruğu beynəlxalq konfransda təmsil olunub

Mədəniyyət Nazirliyi yanında Mədəni İrsin Qorunması, İnkişafı və Bərpası üzrə Dövlət Xidmətinin dəstəyi ilə “Keşikçidağ” Dövlət Tarix-Mədəniyyət Qoruğunun müxtəlif beynəlxalq konfranslarda iştirakı təmin edilir.

Bu günlərdə qoruğun baş elmi işçisi, tarix elmləri namizədi, Bakı Dövlət Universitetinin dosenti Yunis Nəsibli Ukraynanın paytaxtı Kiyevdə keçirilən “Mədəni irsin qorunması kontekstində muzeylər və bərpa: müasir dövrün aktual çağırışları” adlı konfransda iştirak edib.

Yunis Nəsibli konfransda “Mədəni irsin təbliğatında əldə olunmuş nailiyyətlər və Gürcüstanla sərhəd bölgələrində yerləşən tarixi abidələrin qorunması və istifadə edilməsi sahəsində əməkdaşlığın qurulması” adlı məruzə ilə çıxış edib. Məruzəçi həmçinin konfransdakı Gürcüstanın nümayəndə heyəti üzvlərinin ona ünvanlanan suallarına ətraflı cavab verib. Məruzə konfrans iştirakçıları tərəfindən maraqla qarşılanıb.

# Qusar teatrında yeni tamaşa

Qusar Dövlət Ləzgi Dram Teatrında Rafiq Rəhimlinin “Sönmüş talelər” əsərinin məşqləri gedir. Tamaşanın quruluşçu rejissoru Əməkdar mədəniyyət işçisi Laləzar Hüseynova, quruluşçu rəssamı Marina Mahmudova, musiqi tərtibatçısı Əməkdar mədəniyyət işçisi Şaiq Qardaşovdur.

Rollarda Kəmalə Səfərova, Tofiq Mustafayev, Namiq Mustafayev, Sədaqət Əlimuradova, Lalə Qurbanova, Yuri Kərimov və başqaları çıxış edir.

Tamaşanın iyul ayında təqdim olunması nəzərdə tutulub. Teatr gələn mövsümdə sənətsevərlərə repertuarından daha 5 səhnə əsəri – “Arşın mal alan”, “O olmasın, bu olsun”, “Səhnədə məhəbbət”, “Əsir qadın”, “Yeni müdir” tamaşalarını təqdim edəcək.

Tamaşalar Qusar Mədəniyyət Sarayının səhnəsində nümayiş etdiriləcək. Teatr 27-ci mövsümə iyul ayının sonunda yekun vuracaq.

# VII Muğam Televiziya Müsabiqəsi başa çatıb




Üç ay müddətində sənətsevərlərə yüksək zövq, iştirakçılara isə həyəcan dolu anlar yaşadan VII Muğam Televiziya Müsabiqəsi başa çatıb. İyunun 15-də Heydər Əliyev Mərkəzində keçirilən final gecəsində 7 gənc ifaçı səhnəyə çıxıb.





Tədbirdə gözəl mədəniyyət hadisəsi kimi yaddaqalan Muğam Televiziya Müsabiqəsinin finalının Milli Qurtuluş Gününə təsadüf etməsinin xüsusilə əlamətdar olduğu vurğulanıb. Qeyd olunub ki, əsrlərdən keçərək müasir dövrümüzə çatan muğam sənəti mədəniyyətimizin dünyada tanıdılmasında mühüm rol oynayır. Azərbaycanın Birinci vitse-prezidenti Mehriban Əliyevanın təşəbbüsü və dəstəyi ilə milli-mənəvi dəyərlərimizin daşıyıcısı olan xalq sənəti nümunələri UNESCO-nun mədəni irs siyahısına daxil edilib. Bu nümunələrdən biri də muğamdır. Heydər Əliyev Fondunun muğam sənətilə bağlı həyata keçirdiyi layihələr sırasında Muğam Televiziya Müsabiqəsi xüsusi yer tutur. 2005-ci ildə əsası qoyulan müsabiqə muğam irsinin qorunub saxlanılmasına, gələcək nəsillərə ötürülməsinə, gənc istedadların aşkar edilməsinə xidmət edir.

Diqqətə çatdırılıb ki, Heydər Əliyev Fondunun dəstəyi, Azərbaycan Televiziyasının təşkilatçılığı, Mədəniyyət Nazirliyinin iştirakı ilə Mədəniyyət Fondunun layihəsi əsasında keçirilən budəfəki müsabiqə də əsl sənət marafonuna çevrilib. VII Muğam Televiziya Müsabiqəsində iştirak üçün 400 ifaçı müraciət edib. Onlardan 20-si layihədə iştirak etmək hüququ qazanıb. Müsabiqə hər həftənin 2-ci və 4-cü günlərində Azərbaycan Televiziyası və "Mədəniyyət" kanalında canlı olaraq yayımlanıb.

VII Muğam Televiziya Müsabiqəsinin final gecəsində 7 xanəndə – Vəliş Mirzəyev, Faiq Əkbərov, Rəvan Qaçayev, Zülfiyyə Cəbrayılzadə, Murad Rüstəmzadə, İlahə Rüstəmova və Xəyal Hüseynov ifalarını təqdim ediblər. Gecədə İmadəddin Nəsiminin qəzəlləri üstə muğam şöbələri və təsniflər səslənib.

Sonra münsiflər heyətinin üzvləri – Xalq artistləri Əlibaba Məmmədov, Arif Babayev, Mənsum İbrahimov, Səkinə İsmayılova, Mələkxanım Əyyubova, Bəstəkarlar İttifaqının katibi, Əməkdar incəsənət xadimi Sərdar Fərəcov və müsabiqənin icraçı direktoru, Yazıçılar Birliyinin katibi İlqar Fəhmi qalibləri müəyyənləşdirmək üçün məşvərət otağına dəvət olunublar. Münsiflər mükafatçı və qalibləri elan ediblər.

Əvvəlcə müsabiqənin diplomantları təltif olunublar. İki gənc ifaçıya – Suma Tapdıqovaya və İran İslam Respublikasının təmsilçisi Hüseyn Səbaya müsabiqənin xüsusi mükafatı təqdim edilib.

Gənc xanəndələr İlahə Rüstəmova və Xəyal Hüseynov müsabiqədə birinci yeri qazanıb. Birinci yerlərin sahiblərinə milli geyim dəsti təqdim olunub.

İkinci yeri Murad Rüstəmzadə və Zülfiyyə Cəbrayılzadə, üçüncü yeri Vəliş Mirzəyev, Rəvan Qaçayev və Faiq Əkbərov tutublar. Mükafatları münsiflər heyətinin üzvləri təqdim ediblər.

Qaliblərin mükafatlandırılmasından sonra çıxış edən müsabiqənin icraçı direktoru, Yazıçılar Birliyinin katibi İlqar Fəhmi muğam sənətinin inkişafına verdiyi yüksək dəstəyə görə Prezident İlham Əliyevə və birinci xanım, Heydər Əliyev Fondunun prezidenti, UNESCO-nun və İSESCO-nun xoşməramlı səfiri Mehriban Əliyevaya münsiflər heyəti adından dərin təşəkkürünü bildirib.

Daha sonra qalib xanəndələr "Qarabağ şikəstəsi"ni ifa ediblər.

# Xalq artisti Bəsti Cəfərovanın 60 illik yubileyi qeyd olunub

Azərbaycan Dövlət Akademik Milli Dram Teatrının aktrisası, Xalq artisti Bəsti Cəfərovanın 60 illik yubileyi iyunun 14-də doğma səhnədə qeyd olunub.



Yubiley tədbirində çıxış edən Azərbaycan Teatr Xadimləri İttifaqının sədri, Akademik Milli Dram Teatrının bədii rəhbər-direktoru, Xalq artisti Azər Paşa Nemətov Bəsti Cəfərovanın sənət yolundan danışıb, onu əlamətdar yubileyi münasibətilə təbrik edib, daha böyük yaradıcılıq uğurları arzulayıb.

Azər Paşa Nemətov mədəniyyət naziri Əbülfəs Qarayevin yubilyara ünvanladığı təbrik məktubunu oxuyub.

Azərbaycan Teatr Xadimləri İttifaqı adından Xalq artisti Hacı İsmayılov, Akademik Milli Dram Teatrının kollektivi adından Xalq artisti Ramiz Novruz Bəsti Cəfərovanı təbrik ediblər. Aktrisaya teatrın adından xatirə hədiyyəsi təqdim olunub.

Yubilyar sənətkar göstərilən diqqətə görə Mədəniyyət Nazirliyi, Teatr Xadimləri İttifaqı və Akademik Milli Dram Teatrına təşəkkürünü bildirib. Keçdiyi sənət yoluna nəzər salan Bəsti Cəfərova tamaşaçıların sevgisini qazandığına görə özünü xoşbəxt hiss etdiyini deyib: "Bu günlərdə mənə olan zənglərin ardı-arası kəsilmir. Dostlar, həmkarlar, tamaşaçılar zəng edib təbrik edirlər. Yubiley münasibətilə teatrda hamı mənim üçün nə isə eləməyə çalışır. Bu, məni çox sevindirir. Teatr kollektiv işidir. Mən bu teatra, bu kollektivə xidmət edirəm və bununla qürur hissi keçirirəm".

Yubiley gecəsində Bəsti Cəfərovanın baş rolu oynadığı "Qətibə İnanc" tamaşası nümayiş olunub. İkihissəli səhnə əsəri görkəmli yazıçı Məmməd Səid Ordubadinin "Qılınc və qələm" romanının motivləri əsasında Çingiz Ələsgərli tərəfindən yeni səhnə versiyasında işlənib.

Tamaşanın quruluşçu rejissoru Xalq artisti Mərahim Fərzəlibəyov, quruluşçu rəssamı Əməkdar mədəniyyət işçisi İlham Elxanoğlu, musiqi tərtibatçısı Kamil İsmayılov, rejissor assistenti Vüqar Məmmədovdur.

Qeyd edək ki, "Qılınc və qələm" əsəri 1977-ci ildə görkəmli rejissor Tofiq Kazımovun quruluşunda Akademik Milli Dram Teatrında tamaşaya qoyulub.

# "Unudulmayanlar" layihəsində xanəndə Mirzə Məhəmmədhəsən yad edilib



Beynəlxalq Muğam Mərkəzinin "Unudulmayanlar" layihəsinin növbəti buraxılışı Şirvan muğam məktəbinin görkəmli nümayəndəsi Mirzə Məhəmmədhəsənə həsr edilmişdi.

İyunun 17-də keçirilən gecədə tədbirin aparıcısı, filologiya üzrə fəlsəfə doktoru Gülhüseyn Kazımlı xanəndənin həyat və yaradıcılığından söz açdı. Bildirdi ki, XIX əsrin ortalarında Şamaxıda dünyaya gələn Mirzə Məhəmmədhəsən Fələkzadə (Şirvani) şəhərdəki musiqi məclisinin yaradıcısı Mahmud Ağanın yetirməsi olub. Mədrəsə təhsili alan Mirzə Məhəmmədhəsən ərəb və fars dillərini səlis bilib, muğam ifaçılığı sənətində öz dəsti-xətti ilə seçilib. Xanəndə Cənubi Qafqazın bir çox yerlərində öz sənəti ilə tanınıb, məharətlə oxuduğu "Şüştər", "Humayun", "Rast", xüsusilə "Mənsuriyyə" muğamlarına öz möhürünü vurub. O, həmçinin oxuduğu muğamın lirik-dramatik xarakterini açmaq üçün sözləri və qəzəlləri məxsusi olaraq seçməyi bacarıb. Məşhur xanəndə həm də "Nalə" adlı şeirlər kitabının, "Sarıtorpaq şikəstəsi"nin və bir sıra təsniflərin müəllifidir.

O da diqqətə çatdırıldı ki, gecənin hazırlanmasından əvvəl Şamaxıya səfər edilərək xanəndənin yaradıcılığı ilə bağlı məlumatlar toplanılıb, bu işdə araşdırmaçı Ağakərim Nafizin məlumatlarından da istifadə edilib. Bildirildi ki, həyatının sonu o qədər də fərəhli olmayan xanəndənin ömrünün ahıl yaşlarında gözləri tutulub, qulaqları isə demək olar ki, eşitməyib. O, son illərini Göyçaya köçərək qohumlarının evində yaşayıb və 1917-ci ildə orada vəfat edib.

Gecədə şair Əjdər Ol, Şamaxı ictimaiyyəti adından müəllimə Nəzakət Məmmədova, Milli Konservatoriyanın professoru Abbasqulu Nəcəfzadə, muğam müəllimi Ağakərim Nafiz və başqaları çıxış edərək tədbirin təşkilinə görə minnətdarlıqlarını bildirdilər. Xalq artisti Zabit Nəbizadə, Azərbaycan Dövlət Akademik Opera və Balet Teatrının solisti Mütəllim Dəmirov, muğam müsabiqəsinin laureatları Murad Laçınlı, Nisbət Sədrayeva, Nasir Ətapur, Kamilə Nəbiyeva, Zeynal Əhmədov və Ağakərim Nafiz Mirzə Məhəmmədhəsənin vaxtilə bəstələdiyi və bu gün də məşhur olan təsnifləri ifa etdilər. Xanəndələri tarzən Rüstəm Müslümovun rəhbərlik etdiyi ansambl müşayiət edirdi.

Qeyd edək ki, Beynəlxalq Muğam Mərkəzinin "Unudulmayanlar" layihəsinin məqsədi Azərbaycan milli musiqi tarixində dərin iz qoymuş görkəmli mədəniyyət xadimlərinin yaradıcılıqlarını tanımaq və təbliğ etməkdir.

# Heydər Əliyev Sarayında bayram konserti

Heydər Əliyev Sarayında 15 İyun – Milli Qurtuluş Gününə həsr olunmuş bayram konserti keçirilib.

İyunun 13-də təqdim olunan "Mən həmişə fəxr etmişəm, bu gün də fəxr edirəm ki, mən azərbaycanlıyam!" adlı konsert proqramını Azərbaycan Dövlət Rəqs Ansamblı açıb. "Mənim Azərbaycanım" adlı möhtəşəm rəqs nömrəsindən sonra sevilən ifaçılar bir-birindən maraqlı musiqi nömrələri təqdim ediblər.



Xalq artistləri Mübariz Tağıyev, Cavan Zeynallının ifalarında vətəni tərənnüm edən mahnılar, Aftandil İsrafilovun bənzərsiz ifası tamaşaçılar tərəfindən alqışlarla qarşılanıb. Əməkdar artistlər Nuriyyə Hüseynova, Bəsti Sevdiyeva, Səlim Abbasov, Cabir Abdullayev, Elza Seyidcahan repertuarlarından musiqi nömrələrini təqdim ediblər. Konsert proqramında Nazim Faytonçu, gənc müğənnilər Samirə Əfəndi, İlkin Fuad, Pərviz Bülbülə və başqalarının ifaları da səslənib.

Bayram konsertinin rəngarəng repertuarı musiqisevərlərə vətənpərvərlik hisləri aşılamaqla yanaşı, həm də milli irsə və milli dəyərlərə çağırış kimi səslənib. Konsert tamaşaçılar tərəfindən böyük maraqla qarşılanıb.

# Mərkəzi İncəsənət Məktəbində ustad dərsləri

Xəbər verildiyi kimi, 8-14 iyun tarixində Qara Qarayev adına Mərkəzi İncəsənət Məktəbində müvafiq əməkdaşlıq müqaviləsi çərçivəsində xaricdən dəvət edilmiş tanınmış musiqiçilərlə görüş və ustad dərsləri keçirilib.

Dərsləri Sankt-Peterburq Musiqi liseyinin direktoru, professor, pianoçu Vitali Romanov, M.M.İppolitov-İvanov adına Moskva Uşaq musiqi məktəbinin violin sinfinin müəllimi Lyudmila Yesenina, habelə Moskvadakı M.L.Rostropoviç adına Uşaq musiqi məktəbinin müəllimi Yekaterina Koroleva (violonçel), İstanbul Texniki Universiteti Türk Musiqisi Dövlət Konservatoriyasının professoru, beynəlxalq müsabiqələr laureatı, virtuoz violin ifaçısı Cihat Aşkın keçib. Qonaqlar məktəbin fortepiano və simli alətlər şöbəsinin işi ilə yaxından tanış olaraq, bu şöbələrin bacarıqlı şagirdlərinə məsləhətlər və tövsiyələrini veriblər.



Dərslərdən sonra məktəbin direktoru – Əməkdar artist Əziz Qarayusifli görkəmli musiqiçilərə şagird və müəllimlər adından təşəkkür edib. Bildirib ki, peşəkarlıq səviyyəsinin artırılması, sənətin inkişafı üçün belə görüşlərin keçirilməsi, xarici ölkələrdən dəvət olunan təcrübəli müəllimlərin ustad dərslərinin təşkil edilməsi çox vacib və əhəmiyyətlidir. Qonaqlar da məktəbin kollektivinə uğurlar arzulayıblar.

# Respublika və beynəlxalq müsabiqələr laureatlarının çıxışı

Bakı Şəhər Mədəniyyət Baş İdarəsinin G.Şaroyev adına 35 nömrəli Musiqi məktəbində 2018-2019-cu tədris ilində respublika və beynəlxalq miqyaslı müsabiqələrdə laureat adını qazanmış şagirdlərin konserti keçirilib.



Konsertdə Nuray Miratayeva, Ləman Seyidova, Şirin Əmiraslanova, Fatimə Vəliyeva, Səmra Hüseynli, Fidan Əmişova (fortepiano), Murad İbrahimli (tar), Asim Rzazadə (klarnet), Nərgiz Rəcəbli (qanun), Tuqay Hüseynzadə (kamança), Asunda Səlimli (xanəndə) və məktəbin məzunları Təhminə Xuduzadə (violonçel) Nəriman Əmiraslanov (fortepiano) maraqlı proqramla çıxış ediblər.

Konsertdə Paris və İsveç konservatoriyalarının professoru, tanınmış pianoçu Adilə Əliyeva iştirak edib. O, bu yaxınlarda Fransada keçirilən Adilə Əliyeva adına Beynəlxalq müsabiqədə laureat adını qazanmış klarnet ifaçısı – məktəbin şagirdi Asim Rzazadənin və konsertdə çıxış edən şagirdlərin ifası haqqında geniş çıxış edərək xoş sözlər söyləyib.

Məktəbin direktoru, Əməkdar müəllim Yusif Vəliyev sonda çıxış edərək Adilə xanıma və şagirdlərə təşəkkürünü bildirib. Laureatlara təşəkkürnamə təqdim edilib.

№43 (1628)
19 iyun 2019
www.medeniyyet.az

# “Onun təkcə yeri yox, özü də həmişə görünəcək...”

## Xalq artisti Amaliya Pənahova yad edildi

əvvəli səh. 1-də

Beynəlxalq Türk Mədəniyyəti və İrsi Fondunun prezidenti Günay Əfəndiyeva çıxış edərək bildirdi ki, Amaliya xanım ölməz dramaturq İlyas Əfəndiyevin “Sən həmişə mənimləsən” tamaşası ilə Azərbaycan teatrında bir ulduz kimi parladı. Aktrisanın kino, həm də teatr səhnəsində canlandırdığı obrazlar onun böyük istedadından xəbər verirdi. O, Azərbaycan, türk, həm də dünya klassiklərinin əsərlərini səhnədə oynamışdı. Bu obraz rəngarəngliyinin arxasında böyük bir zəhmət dururdu. Bütün bunlar ilk növbədə onun öz sənətinə sevgisindən irəli gəlirdi.

Milli Məclisin deputatı, akademik Rafael Hüseynov unudulmaz aktrisanın Azərbaycan səhnəsində, ekranında, mədəni gerçəkliyində dərin iz qoyduğunu vurğuladı: “Elə incilər yaradıb ki, ondan yaxşısını yaratmaq bir də çətin olacaq. Görkəmli sənətkarın böyüklüyü zaman ötdükcə daha dərindən dərk ediləcək. Adətən böyük sənətkarlardan danışarkən deyirlər ki, onların yeri həmişə görünür və görünəcək. Amaliya xanım haqqında danışarkən yeri görünəcək ifadəsi dəqiq səslənmir. Amaliya xanımın təkcə yeri yox, özü də həmişə görünəcək”.

Türkiyənin Azərbaycandakı səfiri Erkan Özoral da tədbirdə iştirak edirdi. O, Amaliya Pənahovanın yaratdığı obrazların özünəməxsusluğundan danışdı. Qeyd etdi ki, görkəmli aktrisanın sənəti onu sevənlərin qəlbində həmişə yaşayacaq.

Xalq artisti Rafiq Əzimov vaxtilə bir teatrda çalışdığı sənət yoldaşı haqqında xatirələrini bölüşdü, onun xatirəsinin əbədiləşdirilməsi ilə bağlı fikirlərini bildirdi.

Tədbirdə daha sonra Xalq artisti Firəngiz Mütəllimova, Cəfər Cabbarlı adına “Azərbaycanfilm” kinostudiyasının direktoru, Əməkdar incəsənət xadimi Müşfiq Hətəmov, Əməkdar artist Elxan Qasımov və başqaları Amaliya Pənahovanın Azərbaycan teatr və kino sənətində bənzərsiz sənət dünyasından, yaratdığı maraqlı obrazlar qalereyasından söhbət açdılar. Diqqətə çatdırıldı ki, görkəmli sənətkarın adı Azərbaycan teatrının böyük bir dövrü ilə bağlıdır. On doqquz yaşında teatra gələn gənc qız ömrünün sonrakı 50 ilini Azərbaycan mədəniyyətinin, incəsənətinin təbliğinə və inkişafına həsr edib. O, 1964-cü ildən teatrda, kinoda, televiziya tamaşalarında 300-dən çox müxtəlif səpkili, rəngarəng, parlaq obrazlar yaradıb. Onlardan Tomris, Natəvan, Medeya, Burla Xatun, Məhsəti, Larisa, Ofeliya kimi rolları Azərbaycan teatr tarixinə qızıl hərflərlə yazılıb.



O da qeyd edildi ki, istedadlı aktrisa həm də bacarıqlı rejissor kimi özünü göstərib. 10-dan çox teatr və televiziya tamaşasına quruluş verib. Bu tamaşaların çoxu lentə alınıb, hazırda televiziyanın “qızıl fondu”nda saxlanılır. Xalq artisti 1992-ci ildə Bakı Bələdiyyə Teatrını yaradıb və bu teatra orta və yaşlı nəsillə yanaşı, gənc istedadlı aktyorları da cəlb edib, onların yaradıcılıq qabiliyyətinin inkişafı üçün səylərini əsirgəməyib. Amaliya Pənahova milli teatr və kino sənətinin inkişafında böyük xidmətlərinə görə yüksək fəxri adlara, dövlət təltiflərinə layiq görülüb.

Sonda Amaliya Pənahovanın oğlu İlqar Muxtarov çıxış edərək tədbirin təşkilatçılarına və iştirakçılarına təşəkkürünü bildirdi.

**Savalan FƏRƏCOV**

# Daşkənddə Yunus Oğuzun “Ovçu” romanının təqdimatı



Daşkənddə yazıçı Yunus Oğuzun “Ovçu” romanının təqdimatı ilə Özbəkistanda keçirilən “Azərbaycan mədəniyyəti və ədəbiyyatı günləri”nə yekun vurulub.

Daşkənddəki Heydər Əliyev adına Azərbaycan Mədəniyyət Mərkəzinin (AMM) təşkilatçılığı ilə gerçəkləşən tədbirdə elm, mədəniyyət və incəsənət xadimləri, şair və yazıçılar, soydaşlarımız, jurnalistlər iştirak edib.

AMM-in direktoru Samir Abbasov iki ölkə arasında dostluq və əməkdaşlığın möhkəmləndirilməsi, milli mədəniyyətimizin təbliğinə yönəlmiş bu cür tədbirlərin əhəmiyyətindən bəhs edib. Yunus Oğuzun yaradıcılığı haqqında danışan direktor 2016-cı ilin Aprel hadisələrinə həsr olunan və Daşkənddə özbək dilində çap edilən “Ovçu” romanını yüksək qiymətləndirib. Əsər Aprel zəfərinin qəhrəmanlarından polkovnik Murad Mirzəyev və onun döyüş yoldaşlarının həyat yolundan bəhs edir.

Çıxış edənlər Özbəkistanda keçirilən “Azərbaycan mədəniyyəti və ədəbiyyatı günləri”ni yüksək qiymətləndiriblər. Filoloq Nurbay Cabbarov Azərbaycan-Özbəkistan ədəbi əlaqələri haqqında danışıb, Yunus Oğuzun özbək dilində də çap edilən “Əmir Teymur” əsərinə yüksək qiymət verib. “Ovçu” romanının özbək dilinə tərcüməçisi, filoloq Gülbahar Aşurova əsərdə yaradılan obrazların gənclər üçün nümunə olduğunu qeyd edib.

Yunus Oğuz çıxışında roman haqqında fikirlərini bölüşüb. Yazıçıya türk tarixinin araşdırılması sahəsində xidmətlərinə görə Özbəkistanın “Turan” Akademiyasının üzvlük vəsiqəsi və döş nişanı təqdim olunub.

Sonda “Azərbaycan mədəniyyəti və ədəbiyyatı günləri”nin bağlanışı münasibətilə bədii proqram təqdim olunub.

# Unudulmaz sənətkarın xatirəsinə

Korifey sənətkarlar pleyadasının axırıncı mogikanlarından biri, görkəmli teatr və kino aktrisası, 54 il müddətində milli teatr və kino sənətinin aparıcı simalarından olmuş Amaliya Pənahovanın doğum gününü ilk dəfə onsuz qeyd etdik.

Yaşasaydı 15 iyunda 74 yaşını qeyd edəcəkdi sevimli sənətkarımız. Ömrünün son illərində amansız xəstəliklə mübarizə aparır, eyni zamanda öz teatr layihələrini reallaşdırmağa çalışırdı. Kənardan hamı onun gördüyü işlərə heyranlıqla baxırdı. Elə mən də. O, teatrla bağlı hər bir işi sevgi və məhəbbətlə görürdü. Elə bil harasa tələsirdi. Yaşından asılı olmayaraq bütün aktyorları öz övladı qədər sevir və onları hər zaman sevindirməyə çalışırdı.

Onun səhnədə yaratdığı “Sən həmişə mənimləsən”də Nargilə, “Pəri cadu”da Pəri, “Oqtay Eloğlu”da Firəngiz, “Vaqif”də Xumar, “Nişanlı qız”da Şəlalə və Zərifə, “Təhminə və Zaur”da Təhminə, “Xurşudbanu Natəvan”da Natəvan, “Mənim günahım”da Ayqız, “Unuda bilmirəm”də Nərmin, “Mahnı dağlarda qaldı”da Şahnaz, “Bizim qəribə taleyimiz”də Nərmin, “Qəribə oğlan”da Kəmalə, “Şeyx Xiyabani”də Mahnur, “Tənha iydə ağacı”nda Süreyya, “Sevgililərin cəhənnəmdə vüsalı”nda Mədinə, “Məkr və məhəbbət”də Luiza, “Cehizsiz qız”da Larisa,



“Nazirin xanım”da Anka, “Medeya”da Medeya, “Meşşanlar”da Tatyana, “Qanlı Nigar”da Nigar və digər rollar, televiziya və bədii filmlərində yaratdığı rəngarəng obrazlar hər zaman yada düşür. M.Əlizadənin “Mən gözəl deyiləm”, Ç.Aytmatovun “Qırmızı yaylıqlı qovağım mənim”, M.Bayciyevin “Duel”, N.Hikmətin “Bayramın son gecəsi”, J.Koktonun “İnsanın səsi”, L.Zorinin “Varşava təranələri”, R.Qasımovanın “Ömrün yollarında”, M.F.Axundzadənin “Lənkəran xanının vəziri”, İ.Əfəndiyevin “On manatlıq lüstr”, M.İbrahimovun “Mədinənin ürəyi” və başqa teletamaşalarda baxımlı və yaddaqalan obrazlar qalereyası hər zaman göz qarşısında canlanır. Amaliya xanımın istedadı “Babək” (Zərnisə), ”Arxadan vurulan zərbə” (Ziba), “Həyat bizi sınayır” (Münəvvər), “Xatirələr sahili” (Xalidə), “Qərib cinlər diyarında” (Zərri), “Mən mahnı qoşuram” (Sonanın anası), “Gözlə məni” (Fəxrəndə) və sair bədii filmlərdəki obrazlara rəngarənglik, bədii bütövlük və təravət verib. Bəzən insan inana bilmir ki, bütün bu bədii obrazlar qalereyasını yaradan eyni aktrisadır. Bəli, bu insan, bu sənətkar, yarım əsrdən artıq ömrünü sənətə bəxş etmiş, xoş siması, gözəl görkəmi və səsi ilə yaddaşlara həkk olunmuş unudulmaz Amaliya xanım Pənahovadır. Onun sənət ulduzu çox erkən – 19 yaşında parladı və ömrünün sonuna qədər sönmədi. Özündən sonra seçib, teatra dəvət etdiyi istedadlı aktyorlardan ibarət Bakı Bələdiyyə Teatrı adlı sənət ocağını bizə yadigar qoyub getdi...

Həyatımda bir neçə insanla görüşdüyüm üçün taleyimdən çox razıyam. Onlardan biri də hər zaman sənətinə rəğbət bəslədiyim Amaliya Pənahovadır. Təəssüflər olsun ki, taleyim məni onunla gec görüşdürdü. O, Bələdiyyə Teatrı üçün mənə Azərbaycan Xalq Cümhuriyyətinin 100 illiyi ilə bağlı epik janrda əsər sifariş etmişdi. Yeri gəlmişkən qeyd edim ki, bu da təsadüfi olmamışdı. Haqqımda ona ətraflı məlumatı yazacağım əsərin rejissoru olacaq Xalq artisti Mərahim Fərzəlibəyov vermişdi. Mən əsəri yazmağa başladım və bir neçə dəfə Mərahim müəllimlə birgə Amaliya xanımla görüşüb, hazır hissələri ona oxuyur və məsləhətlər alırdım. Bu görüşlər əsnasında mən onun həyatsevərliyinə, dünyagörüşünə, sənət sahəsindəki dərin bilgisinə, yumor hissinə və insani xüsusiyyətlərinə heyran oldum. Əsər yazıldı, məşqlər başladı. Amaliya xanım, demək olar ki, hər məşqə gəlirdi. Tamaşadan nigaran idi. Xəstəliyi şiddətlənəndə, məşq prosesini çəkib ona göndərirdilər. O da çəkilişə baxaraq məsləhətlərini verirdi. Tamaşa artıq hazır idi. Afişa vurulmuş və Akademik Milli Dram Teatrının bədii rəhbəri-direktoru, Xalq artisti Azər Paşa Nemətov tamaşanın oynanılması üçün səhnəni Bələdiyyə Teatrına vermişdi. Tamaşa günü hamı onu gözləyirdi. Lakin o, tamaşaya gəlməyə hazırlaşarkən, birdən-birə halı pisləşir və təcili olaraq xəstəxanaya aparılır. Teatrın bütün heyəti bunları bilsə də, stress və həyəcana qalib gələrək tamaşanı oynadı.

Artıq Amaliya Pənahova həyatda yoxdur. Ancaq əfsanələr heç vaxt unudulmur, yaddan çıxmır. Əfsanələr əbədidir. Deməli, Amaliya xanım əfsanəsi də xatirələrdə, onun haqqında yazılan əsərlərdə və yaddaşlarda əbədi yaşayacaq.

**Çingiz ƏLƏSGƏRLİ**
**dramaturq**

# Musiqisi Asəf Zeynallınındır...

Cəmi 23 il yaşadı. Lakin bu qısa, ağrılı, məhrumiyyətli ömrü musiqi salnaməmizin parlaq səhifəsinə çevirə bildi. Beləcə, yaddaşlara tez açılıb, tez də solan sənət çiçəyi kimi köçdü. Bu il anadan olmasının 110 illiyini qeyd etdiyimiz böyük bəstəkar Asəf Zeynallı (1909-1932) hələ də 23 yaşlı növcavandır...

Azərbaycanın neçə-neçə elm, mədəniyyət və incəsənət xadimini yetişdirən qədim Dərbənddə doğulan Asəf Zeynallı qısa ömrünə sonsuz sənət inciləri daxil edən bəstəkardır. Həyatın sınağı ilə erkən yaşından rastlaşan gələcəyin böyük bəstəkarı bir yaşında atasını itirir və üç qardaşı ilə gənc anasının himayəsində qalır.

Oğlunun təhsilli böyüməsini istəyən ana onu 7 yaşında Dərbənd Realnı məktəbinə gətirir. İlk günlərdən balacanın musiqi duyumu müəllimlərinin diqqətini cəlb edir. Onu musiqi dərnəyi və nəfəs alətləri orkestrinə daxil edirlər, klarnetdə ifa etməyə başlayır. Bu andan da bütün varlığı ilə musiqiyə bağlanır.

20-ci ilin əvvəllərində ailəsi ilə Bakıya köçən Asəf elə təhsilini burada davam etdirir. Doqquzillik məktəbə daxil olur, musiqi istedadı onun burada da yolunu açır və müəllimləri hərbi məktəbin nəfəs alətləri orkestrinə daxil edilməsinə nail olurlar. Orkestrdə trubada məharətlə ifa etdiyindən müəllim və tələbələrin sevimlisinə çevrilir.

Musiqiyə olan bu sonsuz sevgi və yeni yaranan ali musiqi təhsili məktəbi onun daha da püxtələşmək arzusunu qabardır və o vaxtlar Şərq Konservatoriyası adlanan Musiqi Texnikumunun nəfəs alətləri bölməsinə daxil olur.

Asəfi gördüyü andan “Bu ki əsl istedaddır” deyən dahi Üzeyir Hacıbəyli ona xüsusi diqqət göstərir. O, sonrakı illərdə öz xatirələrində bu qayğı və sevgidən bəhs edərək Üzeyir bəyin mənəvi atası olduğunu qeyd edir.

Üzeyir bəy də onu “Asəf fəaliyyət göstərdiyi qısa bir dövr ərzində məhsuldar işləmiş, çoxlu əsər yaratmışdır. Onun bəstəkarlıq fəaliyyəti təhsil illəri ilə bir vaxta düşdüyündən, əsərləri əslində sənətkarın yaradıcılıq fəaliyyətinin birinci və sonuncu mərhələsini xarakterizə edir. Öz yaradıcılığında yeni musiqi üslubunun sağlam ünsürlərini təbliğ edən Asəf Zeynallı Azərbaycanın ilk professional gənc bəstəkarı idi” sözləri ilə xatırlayırdı.



### İmtina

Asəf Zeynallı ilk pyesini 14 yaşında yazır və onu ilk təqdim edən də müəllimi Üzeyir bəy olur. Həyat onu çox sınağa çəkir. Belə ki, səhhətində yaranan problemlə əlaqədar olaraq sevə-sevə dilləndirdiyi truba alətindən uzaqlaşmalı olur. Çünki həkimləri ona ümumilikdə nəfəs alətlərində ifanı qadağan etmişdilər.

Amma bütün bu qadağalar, məcburi yasaqlar onun tükənməz musiqi sevgisini kölgədə qoymur. Trubanı violonçel ilə əvəzləyir, texnikumun bu alət üzrə sinfinə keçir. Burada müəllimi Leopold Rostropoviç olur. Bu alət üçün bir neçə əsər də yazan Asəf musiqi sevgisini fortepianoya da salır. Paralel dərs alır. Bu alətə xüsusi marağı və qısa müddətdə məharətlə ifası Üzeyir bəyin diqqətindən yayınmır. Müəllimi sevimli tələbəsinə fortepiano bağışlayır.

Asəf Zeynallı 1926-cı ildə Azərbaycan Dövlət Konservatoriyasının orkestr sinfinə daxil olur. Lakin onun istedadına bələd olan Üzeyir bəy bəstəkarlıq sinfinə keçməsini tövsiyə edir. Beləliklə o, konservatoriyada böyük bəstəkardan xalq musiqimizin əsaslarını öyrənir. Bütün müəllimləri əmin idilər ki, sevimli tələbələrinin gələcəyi parlaq olacaq. Asəf də nakam taleyindən, onu gözləyən ömür baharına qar gətirən qismətdən xəbərsiz halda yazıb-yaradır, bənzərsiz musiqilər bəstələyirdi.

### İlklərin müəllifi

Asəf Zeynallı qısa ömründə musiqi tariximizdə bir sıra janr və istiqamətlərin də yaradıcısı kimi qalıb. Cəfər Cabbarlının sözlərinə yazılmış “Ölkəm” romansı da bu qəbildəndir. Bəstəkar öz vokal əsərlərində Avropa klassik vokal forması ilə xalq musiqimizin lad muğam və melodiya xüsusiyyətlərinin üzvi surətdə sintezinə nail olub.

Konservatoriyada təhsil aldığı vaxtda müəllim kimi də fəaliyyət göstərirdi. Təbii ki, bu da onun yüksək biliyinin, fitri istedadının nəticəsi idi. Heç də hər kəsə nəsib olmayan bu üstünlüyə sahib bəstəkar Qara Qarayev, Zakir Bağırov, Cövdət Hacıyev, Səid Rüstəmov kimi görkəmli musiqi xadimlərinə dərs deyir. Həm konservatoriyada, həm də texnikumda müəllim işləyən A.Zeynallının musiqi tədrisindəki xidmətlərindən biri də ilk dəfə ana dilimizdə nəşr olunan ibtidai not savadlı kitabının həmmüəllifi olmasıdır.

Bəstəkar öz əsərləri ilə milli pianoçuluq məktəbinin inkişafına da böyük təsir göstərib, tədris repertuarını zənginləşdirib. Onun 6 pyesdən ibarət uşaq süitası silsiləsi də maraqlı əsərlərdəndir.

A.Zeynallı bu silsilə ilə Azərbaycanda uşaq musiqi ədəbiyyatının ilk nümunəsini yaradıb. 1940-cı illərə qədər tədris proqramında yalnız onun uşaq süitasından istifadə edilib. Bəstəkarın bu silsiləsinə bu günün musiqi tədrisində də geniş yer verilir. Onun fortepiano musiqisinə mürəkkəb polifonik formaya aid olan 9 fuqası da daxildir. Təəssüf ki, onlardan yalnız 2-si bizə bəllidir. Qalan 7-si isə əlyazma şəklində bəstəkarın arxivindədir.

### Səhnədən gələn səda...

1928-1932-ci illərdə Türk İşçi Teatrının musiqi bölməsinə rəhbərlik edən A.Zeynallı orada səhnələşdirilən bir neçə əsərin də musiqi tərtibatını vermişdi. Tamaşalara yazılan musiqilərlə o, həm də Azərbaycan simfonizminin ilk nümunələrini yaratmış olur. Həmin tamaşaların musiqiləri sonradan bəstəkarın “Fraqmentlər” adlı simfonik süitasında səslənib.

Musiqi haqqında bilik və düşüncələrini artırmaq üçün Moskva və Leninqrad (Sankt-Peterburq) şəhərlərinə səfərlər edən A.Zeynallının bu səfərləri həm də ictimai fəaliyyəti ilə bağlı idi. Sankt-Peterburqda olarkən maestro Niyazinin dirijorluğu ilə filarmoniyada Üzeyir Hacıbəyli, Müslüm Maqomayev və öz əsərlərindən ibarət konsertlər təşkil etmişdi.

### Təkcə “Ölkəm” bəs edər ki...

Bəstəkar qısa ömründə uzun illər yaşayan və bundan sonra da yaşaya biləcək əsərlər yaradıb. “Ölkəm”, “Sual”, “Çadra”, “Seyran”, “Sərhədçi” mahnı və romansları onun vokal musiqisi janrında yaratdığı klassik əsərlərdir. Bu əsərlərlə Azərbaycanın vokal musiqi xəzinəsinə elə gözəl incilər bəxş edib ki, daim ifaçılar bu xəzinədən bəhrələnirlər.

Onun yaradıcılıq fəaliyyətinin mühüm sahələrindən birini Azərbaycan xalq mahnılarını toplaması və notlaşdırması təşkil edirdi. Üzeyir bəyin təşəbbüsü ilə konservatoriyada Elmi tədqiqat musiqi kabinetinin yaradılması onun folklorşünaslıq fəaliyyətini daha da artırdı. 1932-ci ilin yayında gənc bəstəkar kabinetin rəhbəri Bülbüllə birlikdə xalq mahnılarını toplamaq məqsədilə ekspedisiyaya yola düşür. Bu minvalla o, 100-ə qədər xalq musiqisi incisini nota yazır ki, bunların arasında “Uzundərə”, “Ləbi-ləb”, “Evləri var xana-xana”, “Kəklik”, “Səndən mənə yar olmaz” kimi folklor nümunələrinin adını çəkə bilərik.

### “Səndən mənə yar olmaz”

Onun da gənc qəlbində böyük bir eşq sərvəti vardı. Bu həyata, sənətə, vətənə olan eşqlə bərabər, həm də sevib-seçdiyi xanıma olan saf və ülvi məhəbbət idi. Asəf və Kövkəb məhəbbət dastanı onların konservatoriyada oxuduqları illərdən başlamışdır. Lakin bu məhəbbət dastanı da A.Zeynallının qısa ömrü kimi yarıda qalır. Onu əbədiləşdirən isə Kövkəb Səfərəliyevanın saf sevgisi və sədaqəti olur. Belə ki, Asəfdən sonra görkəmli pianoçu, pedaqoq, ictimai xadim kimi fəaliyyət göstərən K.Səfərəliyeva heç kimə könül vermir...

### “Bülbülsüz bahar olmaz”...

1932-ci ildə Qarabağda ekspedisiyada ikən səhhətində ciddi problem yaranan bəstəkarı Bakıya gətirirlər. Həmin il oktyabr ayının 27-də vəfat edir.

Kim bilir, onun qəlbində nə qədər arzuları vardı. Topladığı xalq musiqi nümunələrinin melodiyaları əsasında simfoniyasının əlyazmaları, neçə-neçə musiqi əsərinin eskizləri və nə qədər böyük arzular yarımçıq qaldı. Amma buna rəğmən qısa ömür çoxminlik bir sevgi ilə özünün layiq olduğu, arzu olduğu səadətinə çatdı – sonsuz dinləyici sevgisinə...

**Həmidə NİZAMİQIZI**

# "Bakı Yay Caz Günləri" başa çatıb



Paytaxtımızda keçirilən "Baku Summer Jazz Days" ("Bakı Yay Caz Günləri") festivalı bir-birindən maraqlı təqdimatlarla yadda qalıb. Festival çərçivəsində Beynəlxalq Muğam Mərkəzinin səhnəsində təqdim olunan konsertlər alqışlarla qarşılanıb.

"Baku Summer Jazz Days" "Premier LTD Art Management" prodüser agentliyinin layihəsidir. Agentliyin direktoru Nəzakət Qasımova festivalın ümumi mahiyyətini belə izah edir: "Caz musiqisi Bakı musiqi auditoriyasının çoxdan sevdiyi janrlardan biri kimi özünü hər zaman doğruldur. Bakıda caz musiqisini təbliğ edən tədbir və festivallar mütəmadi keçirilir. Biz də bu musiqinin təbliğini daha da intensiv inkişaf etdirmək məqsədilə yay fəsli keçiriləcək bu konsertlər silsiləsini gerçəkləşdirdik. Artıq üçüncü ildir ki, festival böyük rəğbətlə qarşılanır və gözəl yaradıcı ab-havada məkan alır. Biz də bunun daha parlaq olmasına çalışırıq".

Festivalın növbəti caz gecəsində (14 iyun) Gürcüstanın "İRİAO" etno-caz qrupu və Avropada ən gənc və populyar fank-caz ifaçılarından olan Tom İbarranın kvinteti çıxış edib.

"İRİAO" qrupu gürcü musiqi folklorunun Quriya vilayətinə məxsus krimançuli ifa ənənəsini, gürcü xalq çalğı havalarını, eləcə də müasir etno-cazın rəngarəng aləmini bir üslubda qovuşduran nadir heyətlərdən biridir. Qrupun bədii rəhbəri, pianoçu və bəstəkar David Malazoniya, xalq çalğı alətləri ifaçısı Nuqzar Kavtaradze, basgitaraçı Şako Gelekva, zərbçi Levan Abşilava heyətin instrumental hissəsini təşkil edir, vokal ifa isə müğənnilər üçlüyünə - Buba Murquliya, Mixail Cavaxişvili və Qaqa Abaşidzeyə həvalə olunur. Qrup "Lazuri", "Old City" kompozisiyalarını, "Suliko" xalq mahnısı, "Take 5" caz standartı və digər bəstələri müxtəlif səs ahəngləri və improvizəli ifalarla təqdim edib. Vaqif Mustafazadənin "Günəş" adlı kompozisiyası isə gürcü cazmenlərin Bakı dinləyicilərinə dərin ehtiramının ifadəsi olub.

Gənc fransız elektrogitaraçısı və bəstəkarı Tom İbarra iki CD albomunu buraxmış perspektivli ifaçılardandır. Əsasən fank, fanki-füjn, jazz-rock və digər bu qəbildən olan müasir cərəyanlarda çalışan İbarra 2015-ci ildə gerçəkləşdirdiyi "Sparkling" albomundan kompozisiyalar ifa edib.

"Bakı Yay Caz Günləri" festivalı iyunun 15-də Rusiyanın məşhur caz heyətlərindən biri – Oleq Lundstrem adına Caz orkestrinin konserti ilə başa çatıb. Bu il öz fəaliyyətinin 85 illiyini qeyd edən bu məşhur heyət Dənizkənarı bulvarda dinləyicilərə ənənəvi və müasir proqramlı caz axşamı təqdim edib.

# Qobustan qoruğunda "Yoqa və sağlamlıq festivalı"

İyunun 16-da Bakıda, Dənizkənarı bulvarda Beynəlxalq Yoqa Günü çərçivəsində "Yoqa və sağlamlıq festivalı" keçirilib. Tədbir Hindistanın Azərbaycandakı səfirliyinin tərəfdaşlığı, "YARAT" Müasir İncəsənət Məkanı və Dənizkənarı Bulvar İdarəsinin birgə təşkilatçılığı ilə reallaşıb.

Festival çərçivəsində tədbirlərdən biri Qobustan Milli Tarix-Bədii Qoruğunda təşkil edilib. Tədbir Hindistanın Bakıdakı səfirliyi, Qobustan Milli Tarix-Bədii Qoruğu və Klassik Yoqa Məktəbinin birgə təşkilatçılığı ilə reallaşıb.

Qoruğun direktoru Vüqar İsayev ölkəmizdə yoqa ilə bağlı tədbirlərin keçirilməsinin ənənəvi hal aldığını qeyd edib. Bildirib ki, əhalinin sağlamlığı, eləcə də mədəniyyətin, incəsənətin cəmiyyətin bütün üzvlərinin gündəlik həyat tərzinə çevrilməsi diqqət mərkəzində saxlanılır. Yoqa ilə məşğul olmaq həm sağlam həyat tərzidir və həm də bir xoşbəxtlik fəlsəfəsidir.



Qonaqlara Qobustan Milli Tarix-Bədii Qoruğu haqqında da məlumat verən V.İsayev bildirib ki, Qobustan qaya rəsmləri dünyada bu tipli abidələrdən ən zənginidir. Ərazidə Daş dövründən Son Orta əsrlərə qədər həyat və məişəti əks etdirən çoxsaylı maddi mədəniyyət nümunələri – 6 mindən çox qayaüstü təsvir, 20 mağara və yaşayış yeri, 40 kurqan aşkar edilib və öyrənilib.

Qeyd edilib ki, Qobustan Milli Tarix-Bədii Qoruğundakı nadir qayaüstü rəsmlərin geniş təbliği məqsədilə Prezident İlham Əliyevin müvafiq sərəncamı ilə qoruq muzeyi üçün yeni bina tikilib.

Bildirilib ki, dünya əhəmiyyətli tarixi abidə olan Qobustan qoruğu 2007-ci ildə UNESCO-nun Dünya irs siyahısına daxil edilib.

Hindistanın ölkəmizdəki səfiri Bavitlunq Vanlalvavna yoqanın insanın fiziki, əqli və ruhi sağlamlığını möhkəmləndirən fiziki tapşırıqların və nəfəs üsullarının vəhdətindən ibarət olduğunu qeyd edib. İki ölkə arasında mədəni sahədə əməkdaşlığın daha da inkişaf etdirilməsinin zəruriliyini qeyd edən səfir gələcəkdə də belə layihələrin davamlı olacağını vurğulayıb.

Qədim insan məskəni ilə tanışlıqdan məmnun qaldığını söyləyən diplomat ərazidə aparılmış tədqiqat işləri və tarixi eksponatlarla da maraqlanıb.

Sonra yoqa təliminə start verilib. Qeyd edək ki, beşinci dəfə təşkil olunan festivalın mövzusu "Sağlamlığın və təbiətin qorunması, birlik və bərabərlik"dir.

# Heykəllərlə şəhər gəzintisi



Heykəltəraşlıq Azərbaycanda maraqlı tarixə malik sənət növlərindən biridir. Paytaxt Bakıda XX əsrin əvvəllərindən başlayaraq tanınmış şəxsiyyətlərə, şair və yazıçılara, mədəniyyət və elm xadimlərinə abidələr ucaldılıb.

Bu heykəltəraşlıq nümunələrinin bir qismi dövrün siyasi-ideoloji dəyişikləri ilə bərabər sıradan çıxsa da, əksəriyyəti şəhərin ən gözəl yerlərində, parklarda, meydanlarda həm görkəmli insanların xatirəsini yaşadır, həm də sənət əsərləri kimi göz oxşayır. Lakin bu yazıda sizlərə Bakıda əsasən son illərdə şəhərin abadlaşdırılması zamanı ayrı-ayrı məkanlarda qoyulan və hər hansı konkret, tanınmış şəxsin deyil, ümumiləşdirilmiş, eyni zamanda çoxumuza bir yöndən tanış gələn insan heykəlləri barədə söz açmaq istəyirik. Belə maraqlı, qeyri-adi dizayna malik heykəllərə Bakının mərkəzində, Fəvvarələr meydanında, İçərişəhərdə, Dənizkənarı bulvarda, digər park və bağlarda rast gəlmək olar.

Gəlin, gəzintimizə başlayaq. İlk olaraq Fəvvarələr meydanında qoyulmuş "Gənc qız" heykəlləri haqqında danışmaq istəyirəm. Onlardan biri sol əlində çətir, sağ əlində telefon, çiynində isə çanta ilə təsvir edilib. Digər bir abidə isə oturacaqda əyləşən və əlində güzgü ilə təsvir olunan "gənc qız"dır. Bu heykəllər bura gələn hər kəsin diqqətini çəkir, bir çox insanlar, o cümlədən xarici turistlər onlarla yanaşı xatirə fotoları da çəkdirirlər.



Qeyd edim ki, adlarını çəkdiyim heykəllər Fəvvarələr meydanı 2010-cu ildə yenidən qurulduqdan sonra burada qoyulub.

Meydanda gəzərək Nizami Gəncəvi adına Milli Azərbaycan Ədəbiyyatı Muzeyinin yanına çatanda burada qoyulmuş Dədə Qorqud heykəlini də görürük. Bu nümunə bizim qeyd etdiyimiz heykəllər silsiləsinə aid olmasa da, ulu Qorqudun heykəlinə diqqət yetirmədən keçmək istəmədik. Heykəlin müəllifi Lətif Aslanovdur. Müəllif Dədə Qorqudu əyləşmiş vəziyyətdə, əlində qopuz ilə təsvir edib.

Fəvvarələr meydanını gəzib-dolaşandan sonra yavaş-yavaş İçərişəhərə doğru addımlayıram. İçərişəhər ərazisində qeyri-adi dizayna malik abidələr var. Onlardan biri "Qırçılar" heykəltəraşlıq kompozisiyasıdır. Bu abidənin müəllifi Niyaz Nəcəfovdur. Kompozisiya bir vaxtlar məhəllə-məhəllə gəzərək evlərin damını qırlayan və indi, demək olar ki, yoxa çıxmış qırçı peşəsinə həsr olunub. Abidə-kompozisiyada kubşəkilli qır çəni də təsvir olunub.

İçərişəhərdə gəzintidən sonra yolumuzu Bakı bulvarına tərəf yönəldirik. Bulvarı dolaşan zaman ilk olaraq gözümə balıqçılara ayrılmış sahə sataşır. 2014-cü ildə bulvarın yeni hissəsində balıq tutmaq istəyənlər üçün estakada yaradılıb. Estakadada onların şərəfinə "Balıqçı" heykəli ucaldılıb.

Bulvardakı digər bir heykəl "Yaşlı müəllim" abidəsidir. Heykəlin sol əlində kitab var, sağ əlini isə irəli uzadıb. Bu nümunə də şəhər əhalisinin və turistlərin çox maraq göstərdiyi abidədir. "Yaşlı müəllim" heykəlindən bir az qabaqda "General" heykəli ucaldılıb. O, əli ilə hərbi salam verilən vəziyyətdə təsvir edilib.



Bulvarda sonuncu rastıma çıxan abidə "Gənc rəssam"dır. O, sol əlində boya qabı, sağ əlində fırça tutub və qarşısındakı rəsm əsərini işləyir.

Gəzintinin sonunda sizə məlumat verəcəyim daha bir abidə İzmir parkında qoyulub. "Nurani qoca" heykəli qədim türk milli geyimində və papaqda təsvir edilib.

Burada gəzintimizə ara veririk. Ümidvaram ki, siz də şəhərimizə gəzintiyə çıxanda haqqında danışdığımız və hələ söz açmadığımız belə heykəllərə maraqla tamaşa edəcəksiniz. Heykəllərlə Bakı gəzintisi isə davam edəcək. Çünki hələ tanımalı nə qədər heykəllər var...

**Nurəddin MƏMMƏDLİ**

## Xatirə təqvimi — 19-21 iyun

### Azərbaycan

**19 iyun 1900** – Xalq artisti, görkəmli teatr və kino aktyoru Möhsün Sadıq oğlu Sənani (Cəfərov; 1900 – 11.2.1981) Tiflisdə doğulub. Tiflisdəki Azərbaycan teatrında çıxış edib. 1921-ci ildən Bakıya gələrək Azərbaycan Dövlət Akademik Dram Teatrında çalışıb. "Kəndlilər", "Səbuhi", "Fətəli xan", "O olmasın, bu olsun", "Sehrli xalat", "Dağlarda döyüş" və s. filmlərdə çəkilib.

**19 iyun 1924** – Ədəbiyyatşünas, professor, Əməkdar elm xadimi Seyfulla Qüdrət oğlu Əsədullayev (1924-2011) Astara rayonunun Ərçivan kəndində anadan olub.

**19 iyun 1933** – Əməkdar memar Avrora Əbdüləziz qızı Salamova (1933-1986) anadan olub.

**20 iyun 1898** – Xalq artisti Əli Mirzə oğlu Qurbanov (1898 - 14.10.1962) Tiflisdə anadan olub. Səhnə fəaliyyətinə burada başlayıb, 1925-ci ildə Bakıya gələrək Akademik Dram Teatrında çalışıb. "Bəxtiyar", "Qızmar günəş altında", "Bir qalanın sirri" və s. filmlərdə yaddaqalan obrazlar yaradıb.

**20 iyun 1914** – Əməkdar mədəniyyət işçisi, aşıq Əmrah Paşa oğlu Gülməmmədov (1914-1987) Marneuli rayonunun Araplı kəndində doğulub.

**20 iyun 1915** – Xalq artisti Süleyman Ağababa oğlu Ələsgərov (1915 – 10.12.1998) Bakıda doğulub. "Bizim Cəbiş müəllim", "Bəxtiyar", "Dağlarda döyüş", "Babamızın babasının babası" və s. filmlərdə çəkilib.

**20 iyun 1921** – Bəstəkar, Xalq artisti Cahangir Şirgəşt oğlu Cahangirov (1921 –25.3.1992) Bakının Balaxanı kəndində doğulub. "Arazın o tayında" vokal-simfonik poeması, "Füzuli", "Nəsimi" kantataları, "Azad", "Xanəndənin taleyi" operaları, və çoxsaylı mahnıların müəllifidir. "Koroğlu", "Yenilməz batalyon", "Dəli Kür" filmlərinə musiqi yazıb.

**20 iyun 1924** – Biblioqraf, ədəbiyyatşünas, milli mətbuat tarixinin tədqiqatçısı, professor Nazim Fərrux oğlu Axundov (1924-1994) Şuşa şəhərində anadan olub.

**21 iyun 1794** – Tarixçi, şair, maarifçi Abbasqulu ağa Bakıxanov (1794-1847) Bakının Əmircan (Xilə) kəndində anadan olub. 1819-1845-ci illərdə çar Rusiyasının Tiflisdəki Qafqaz Baş Hərbi İdarəsində tərcüməçi işləyib, Türkmənçay müqaviləsinin (1828) imzalanmasında iştirak edib. "Gülüstani-İrəm" əsəri ilə Azərbaycan tarixşünaslığının əsasını qoyub. "Qüdsi" təxəllüsü ilə şeirlər yazıb.

**21 iyun 1933** – Xalq artisti, xanəndə Tələt Məmmədağa oğlu Qasımov (1933 – 28.7.2013) Bakıda doğulub. Azərbaycan Dövlət Filarmoniyası və Dövlət Konsert Birliyinin solisti olub.

### Dünya

**19 iyun 1623** – Fransız filosofu, riyaziyyatçı Blez Paskal (Blaise Pascal; 1623-1662) anadan olub. "Din və digər şeylər haqqında düşüncələr", "Əyalət adamına məktublar" və s. əsərlərin müəllifidir.

**19 iyun 1920** – Fransız kinorejissoru İv Robber (Yves Robert; 1920-2002) anadan olub. Filmləri: "Qara çəkməli ucaboy sarışın", "Ucaboy sarışının qayıtması" və s.

**19 iyun 1924** – Belarus yazıçısı Vasil Bıkov (1924-2003) anadan olub. Əsərləri: "Alp balladası", "Ölülər ağrı hiss etmir", "Sotnikov", "Sübhədək yaşamalı" və s. Əsərləri əsasında filmlər çəkilib.

**20 iyun 1819** – Fransız bəstəkarı Jak Offenbax (Jacques Offenbach; 1819-1880) anadan olub. "Gözəl Yelena", "Paris həyatı", "Quldurlar" və s. operettaların müəllifidir.

**20 iyun 1932** – Rus şairi Robert Rojdestvenski (1932-1994) anadan olub. Əsərləri: "Rekviyem", "Otuzuncu əsrə məktub", "210 addım" poemaları və s.

**21 iyun 1840** – Gürcü şairi, yazıçı, ictimai xadim Akaki Rostomoviç Sereteli (1840 - 8.2.1915) anadan olub.

**21 iyun 1905** – Fransız yazıçı-dramaturqu, filosof Jan-Pol Sartr (Jean-Paul Sartre; 1905-1980) anadan olub. 1964-cü ildə ədəbiyyat üzrə Nobel mükafatına layiq görülüb, lakin mükafatdan imtina edib. Əsərləri: "Ürəkbulanma", "Azadlıq yolları", "Milçəklər", "Qapalı qapılar arxasında", "Dəfn olunmamış ölülər" və s.

**21 iyun 1910** – Rus şairi Aleksandr Tvardovski (1910-1971) anadan olub. "Muraviya ölkəsi", "Vasili Tyorkin", "Uzaqlardan uzaqlara" poemalarının müəllifidir.

**Hazırladı: Vüqar ORXAN**

## AFİŞA — 19-21 iyun

**Azərbaycan Dövlət Akademik Opera və Balet Teatrı (Nizami küç. 95)**

| | | |
|---|---|---|
| 19 iyun | Ü.Hacıbəyli - "Leyli və Məcnun" (opera)<br>H.Sarabskinin anadan olmasının 140 illiyinə həsr olunur | 19.00 |

**Azərbaycan Dövlət Akademik Musiqili Teatrı (Zərifə Əliyeva küç. 8)**

| | | |
|---|---|---|
| 21 iyun | F.Sücəddinov, T.Vəliyeva - "Mən dəyərəm min cavana" | 19.00 |

**Azərbaycan Dövlət Gənc Tamaşaçılar Teatrı (Nizami küç. 72)**

| | | |
|---|---|---|
| 19 iyun | M.Bulqakov - "İt ürəyi" ("Tək" yaradıcılıq platforması) | 19.00 |
| 21 iyun | P.Züskind - "Kontrabas" (Kiçik səhnə) | 19.00 |

**Azərbaycan Dövlət Kukla Teatrı (Neftçilər pr. 36)**

| | | |
|---|---|---|
| 21 iyun | L.Bomon - "Gözəl və bədheybət" | 12.00<br>14.00 |
| | Rus xalq nağılı - "Maşa və Ayı" (rus dilində) | 16.00 |

**Azərbaycan Dövlət Akademik Filarmoniyası (İstiqlaliyyət küç. 2)**

| | | |
|---|---|---|
| 21 iyun | Ü.Hacıbəyli adına Azərbaycan Dövlət Simfonik Orkestri<br>Bədii rəhbər və baş dirijor Rauf Abdullayev<br>Solistlər - Bakı Musiqi Akademiyasının tələbələri | 19.00 |

**Filarmoniyanın Kamera və orqan musiqisi zalı (28 May küç. 41)**

| | | |
|---|---|---|
| 21 iyun | Fortepiano ifaçısı Elçin Şirinovun konserti | 19.00 |

**Beynəlxalq Muğam Mərkəzi (Dənizkənarı Milli Park)**

| | | |
|---|---|---|
| 20 iyun | Dünya Qaçqınlar Gününə həsr olunmuş tədbir | 14.00 |
| 21 iyun | Meksika səfirliyinin tədbiri | 19.00 |

# Yubiley və bayramlar bir arada



İyunun 14-də Ankarada, ölkəmizin Türkiyədəki səfirliyində 28 May – Respublika Günü, 26 İyun – Silahlı Qüvvələr Günü və Azərbaycanın diplomatik xidmət orqanlarının 100 illik yubileyi münasibətilə rəsmi qəbul keçirildi. Xatırladaq ki, Respublika Günü ilə bağlı tədbir Ramazan ayına görə ertələnmişdi. Nəticədə bir yubiley və iki bayram bir arada təntənəli mərasimlə qeyd olundu.

Qəbulda Türkiyənin rəsmi şəxsləri, Silahlı Qüvvələrin generalları, mədəniyyət, ictimaiyyət xadimləri, Ankarada fəaliyyət göstərən diplomatik korpusun və beynəlxalq təşkilatların təmsilçiləri, soydaşlarımız iştirak edirdi.

İki ölkənin dövlət himnləri səsləndirildikdən sonra Azərbaycanın Türkiyədəki səfiri Xəzər İbrahim, səfirliyin hərbi attaşesi, polkovnik Müşfiq Məmmədov və Türkiyənin Gənclər və idman naziri Mehmet Muharrem Kasapoğlu çıxış etdi.

Xəzər İbrahim çıxışında öncə müsəlman Şərqində ilk demokratik respublika olan Azərbaycan Xalq Cümhuriyyətinin yaranmasından bəhs etdi. Bildirdi ki, ötən əsrin əvvəllərində istiqlalımız qazanılanda olduğu kimi, XX əsrin sonunda suverenliyimiz bərpa olunanda da müstəqilliyimizi ilk tanıyan Türkiyə olub. İki ölkənin bu gün də bir-birinə arxa-dayaq olduğunu vurğulayan diplomat qeyd etdi ki, qardaş Türkiyə 100 il əvvəl olduğu kimi yenə də bizimlədir.

Polkovnik Müşfiq Məmmədov Silahlı Qüvvələrimizin inkişafının ümummilli lider Heydər Əliyevin adı ilə bağlı olduğunu diqqətə çatdıraraq bu prosesdə Türkiyənin də əhəmiyyətli rolundan bəhs etdi. Azərbaycan Prezidenti, Ali Baş Komandan İlham Əliyevin rəhbərliyi ilə ordu quruculuğunda əldə olunan nailiyyətlərdən söz açan hərbi attaşe iki ölkənin bu sahədə əməkdaşlığının da davam etdiyini, bu günlərdə Naxçıvanda "Sarsılmaz qardaşlıq 2019" birgə təliminin keçirildiyini diqqətə çatdırdı.

Nazir Mehmet Muharrem Kasapoğlu da çıxışında iki ölkənin tarixi dostluğunun bu gün də davam etdiyini vurğulayaraq "Azərbaycanın və Türkiyənin sarsılmaz qardaşlığı gücümüzə əlavə güc qatır. Türkiyə dövlətinin qurucusu Mustafa Kamal Atatürkün "Azərbaycanın sevinci sevincimiz, kədəri kədərimizidir" və ümummilli lider Heydər Əliyevin "Biz bir millət, iki dövlətik" kəlamları nəsillərə örnəkdir" – dedi.



Sonra səfir Xəzər İbrahim və Türkiyənin Sosial xidmətlər və ailə naziri Zehra Zümrüt Selçuk "Azərbaycan" mövzusunda rəsmlər çəkmiş azərbaycanlı və türkiyəli şagirdlərə təşəkkürnamələr təqdim etdilər.

Mərasim bədii proqramla davam etdi. Qonaqlara Azərbaycanın mətbəx nümunələri təqdim olundu.

***

Türkiyənin Qars şəhərində isə Milli Qurtuluş Günü, Naxçıvan Muxtar Respublikasının 95-ci ildönümü, Respublika Günü və Azərbaycanın diplomatik xidmət orqanlarının 100 illik yubileyi münasibətilə təntənəli mərasim keçirilib.

Ölkəmizin baş konsulluğunun təşkilatçılığı ilə gerçəkləşən mərasimə rəsmilər, şəhərdə fəaliyyət göstərən Atatürk Universitetinin kollektivi, ictimaiyyət nümayəndələri, ətraf vilayətlərdən gələn qonaqlar qatılıblar.

Baş konsul Nuru Quliyev Azərbaycan Xalq Cümhuriyyətinin tarixi, diplomatik orqanlarımızın təsis edilməsi və keçdiyi yol, Naxçıvanın muxtariyyət statusunun qazanılması məsələlərindən danışıb. Ümummilli lider Heydər Əliyevin xilaskarlıq missiyasından bəhs edən natiq diqqətə çatdırıb ki, 1993-cü ilin 15 iyunu dövlətçilik tariximizdə yeni dövrün başlanğıcıdır.

Açılışdan sonra "Şərur" Xalq yallı ansamblının ifası maraqla qarşılanıb. Sonra iki qardaş ölkəyə həsr edilmiş rəsm sərgisinə baxış olub.

**Mehparə SULTANOVA**
**Ankara**

## Milli Qurtuluş Günü Tbilisidə də qeyd olunub

Tbilisidəki M.F.Axundzadə adına Azərbaycan Mədəniyyəti Muzeyində 15 İyun – Milli Qurtuluş Gününə həsr olunmuş tədbir keçirilib. Tədbirdə muzeyin nəzdində fəaliyyət göstərən rəsm dərnəyi şagirdlərinin əl işləri sərgilənib.



Muzeyin direktoru, Əməkdar mədəniyyət işçisi Leyla Əliyeva dərnəyin azərbaycanlı və gürcü şagirdlərinə Milli Qurtuluş Gününün tarixi və əhəmiyyəti barədə məlumat verib.

Tədbirdə məktəbli Səbinə və Səkinə Hüseynova bacıları Azərbaycanın xalq və bəstəkar mahnılarını oxuyublar. Onları Rasim və Ramin Pirməmmədov qardaşları tar və pianoda müşayiət ediblər.

## "Sonsuz dəhliz"in yaradıcı heyəti mükafata layiq görülüb

Litvanın Druskininkay şəhərindəki Gənclik Mərkəzində Xocalı soyqırımından bəhs edən "Sonsuz dəhliz" sənədli filminin nümayişi keçirilib və ekran əsərinin yaradıcı heyəti Beynəlxalq Avrasiya Mətbuat Fondunun (BAMF) mükafatı ilə təltif olunub.



Tədbirdə filmin qəhrəmanı, Xocalı faciəsinin nəticələrini gözləri ilə görmüş hərbi jurnalist Riçardas Lapaytis, ekran əsərinin baş prodüseri və rejissoru Aleksandr Brokas çıxış ediblər.

BAMF-nin Litvadakı nümayəndəsi Riçardas Lapaytis qonaqları salamlayaraq deyib ki, ekran əsəri müxtəlif ölkələrdə, beynəlxalq kinofestivallarda göstərilsə də, Litvanın cənubundakı bu şəhərdə ilk dəfə nümayiş olunur. Xocalı soyqırımının ötən əsrin ən böyük faciələrindən biri olduğunu diqqətə çatdıran jurnalist bildirib: "Şəhərin hələ də işğal altında olmasına baxmayaraq, indiyədək Xocalı əhalisinin qatillərindən heç biri cəzalandırılmayıb və onlar yalnız öz vicdanları qarşısında məsuliyyət daşıyırlar".

Rejissor Aleksandr Brokas film haqqında danışıb, filmin ingilis dilində məşhur britaniyalı aktyor, "Oskar" mükafatçısı Ceremi Ayrons tərəfindən səsləndirildiyini diqqətə çatdırıb.

Sonra "Sonsuz dəhliz" filmi nümayiş olunub.

BAMF-nin prezidenti Umud Mirzəyev çıxış edərək Xocalı hadisələrinin şahidi kimi yaşanmışları ekranda yenidən görməyin çox çətin olduğunu bildirib. O, tədbirin təşkilinə dəstək göstərənlərə təşəkkür edərək filmin nümayişinin tarixi həqiqətlərin yayılmasında əhəmiyyətli rol oynadığını deyib.

Sonda göstərdikləri cəsarətə, Qarabağ münaqişəsi və sülhyaratma prosesi haqqında obyektiv məlumatların yayılmasına verdikləri töhfəyə görə Aleksandr Brokasa və Riçardas Lapaytisə BAMF-nin "Ali Qarabağ Mükafatı" təqdim olunub.

Qeyd edək ki, Heydər Əliyev Fondunun vitse-prezidenti Leyla Əliyevanın təşəbbüsü ilə "Xocalıya ədalət!" təbliğat kampaniyası çərçivəsində ərsəyə gələn "Sonsuz dəhliz" filmi ilk dəfə 2015-ci il iyulun 1-də Britaniya Film və Televiziya İncəsənət Akademiyasında (BAFTA) nümayiş olunub. Ekran əsəri "Global Film Awards 2015" müsabiqəsində mükafata layiq görülüb. Filmin İstanbul, Ankara, Roma, Vilnüs, London, Paris, Dublin, Berlin, Bern və Lüksemburq şəhərlərində təqdimatı keçirilib.

## İsveçdə "Qarabağ" milli rəqs qrupu



İsveçin paytaxtı Stokholm şəhərində müxtəlif ölkələrin mədəniyyətlərinin nümayiş olunduğu beynəlxalq tədbir keçirilib. Ölkəmizi tədbirdə İsveç-Azərbaycan Dərnəyinin (SAF) nəzdində fəaliyyət göstərən "Qarabağ" milli rəqs qrupu təmsil edib.

Yerli ictimaiyyətin mədəni istirahəti üçün təşkil olunan tədbirdə İsveçdə yaşayıb fəaliyyət göstərən müxtəlif xalqların nümayəndələri öz ölkələrinin tarixi, mədəniyyəti, incəsənəti, adət-ənənələri, rəqs və mətbəxini nümayiş etdiriblər.

Tədbirdə uşaqlardan ibarət "Qarabağ" milli rəqs qrupumuzun çıxışı maraqla izlənilib.

SAF-ın fəalları yerli ictimaiyyət nümayəndələrinə ölkəmiz barədə məlumat verib və onları maraqlandıran sualları cavablandırıblar.

# Parisdə azərbaycanlı rəssamın sərgisi

Ölkəmizin Fransadakı səfirliyinin dəstəyi və Fransa-Azərbaycan Dialoq Assosiasiyasının (ADFA) təşkilatçılığı ilə Parisdə rəssam Əli Seyranın əsərlərinin sərgisi təşkil olunub.

Azərbaycan Mədəniyyət Mərkəzində keçirilən tədbirdə ADFA-nın prezidenti Günel Səfərova ölkələrimiz arasındakı mədəniyyət əlaqələrinə və ortaq xüsusiyyətlərə toxunub. Rəhbərlik etdiyi qurum haqqında da məlumat verən G.Səfərova deyib ki, bir yaşı olan ADFA Azərbaycanın mədəniyyəti ilə bağlı çoxlu tədbirlər keçirib. ADFA-nın fəaliyyətinə göstərdiyi dəstəyə görə ölkəmizin Fransadakı səfirliyinə təşəkkürünü bildirən G.Səfərova rəssam Əli Seyranın yaradıcılığından söz açıb. Qeyd edilib ki, Belçikada yaşayan rəssam miniatür əsərlərə üstünlük verir, əsərlərini Azərbaycanın zəngin incəsənətindən ilhamlanaraq yaradır.



Vurğulanıb ki, rəssam bu il anadan olmasının 650 illiyi qeyd edilən İmadəddin Nəsiminin əsərlərinə də bir neçə miniatür çəkib. Sərgidə ölkəmizin tarixi abidələrini, təbiətini əks etdirən natürmortlar sənətsevərlərin marağına səbəb olub.

# Türk yeməkləri festivalı



Xəbər verdiyimiz kimi, Türkiyənin Azərbaycandakı səfirliyi və "Türk Hava Yolları"nın dəstəyi ilə "Fairmont Baku" hotelində yerləşən "Alov" restoranında Türk yeməkləri festivalı keçirilib.

Türkiyə səfirliyinin mədəniyyət və təbliğat müşavirliyindən verilən məlumata görə, "Fairmont Quasar İstanbul" hotelində yerləşən "Aila" restoranının aşpazları bir həftə ərzində festivalın qonaqlarına Anadolu yeməklərini həqiqi İstanbul ləzzəti və Osmanlı kulinariya mədəniyyətinin vəhdətində təqdim ediblər.

İyunun 13-də festivalın qonaqları media nümayəndələri olub. Türkiyə səfirliyinin mədəniyyət və təbliğat müşaviri İrfan Çiftçi media mənsublarını salamlayaraq qeyd edib ki, tədbir Türkiyə turizminin yeni təbliğat meyarlarına uyğun olaraq keçirilir. Məqsəd türk kulinariya mədəniyyəti, Osmanlı mətbəxini Azərbaycanda daha yüksək səviyyədə tanıtmaqdır.

Festival çərçivəsində Türkiyə mətbəxinə həsr olunmuş təqdimat keçirilib. Jurnalistlər müxtəlif ləziz təamların hazırlanması qaydaları ilə tanış olublar.

Türk yeməkləri festivalı iyunun 16-da başa çatıb.

## Venetoda Bakıdan xoş xəbər gözləyirlər

Məlum olduğu kimi, 30 iyun – 10 iyul tarixlərində Bakıda UNESCO-nun Dünya İrs Komitəsinin (WHC) 43-cü sessiyası keçiriləcək.



Tarixi Yerlər və Abidələrin Mühafizəsi Şurası (ICOMOS) Bakı sessiyası öncəsi İtaliyanın Konelyano-Valdobbyadene bölgələrində yerləşən Prosekko təpələrinin UNESCO-nun Dünya irs siyahısına daxil edilməsini tövsiyə edib.

Bildirilir ki, WHC İtaliya hökumətinin təklifini Bakıda qiymətləndirəcək. "Bu, on ildir çatmaq istədiyimiz arzudur", - deyə Veneto regionunun qubernatoru Luka Zaya bildirib.

## Superkompüterə Leonardo da Vinçinin adı verilib

İtaliyada yerləşdiriləcək gələcəyin superkompüteri İntibah dövrünün dahi rəssamı Leonardo da Vinçinin adını daşıyacaq. Bu barədə ölkənin Təhsil və Elmi Araşdırmalar Nazirliyi məlumat yayıb.

Nazir Marko Bussetti bildirib ki, İtaliyada yüksək effektli hesablama üzrə superkompüter Avropa Komitəsi (EuroHPC) tərəfindən seçilib. Onun sözlərinə görə, superkompüter saniyədə inanılmaz sayda əməliyyatlar yerinə yetirəcək. Yeni superkompüter Bolonyada yerləşdiriləcək.

"Superkompüterin bizə həvalə edilməsi ölkəmiz adına qürurverici hissdir. Bu strateji bir təşəbbüsdür və inkişafın, eyni zamanda innovasiyanın təkanverici qüvvəsi olacaq. Yeni kompüter bütün araşdırma sahələrində tətbiq olunacaq", – deyə Marko Bussetti vurğulayıb.

Qeyd edək ki, 120 milyon avro dəyərində olan kompüterin 2020-ci ildə hazır olacağı gözlənilir.

## Türkiyəli rejissor Şanxay kinofestivalının jürisində

Çinin Şanxay şəhərində iyunun 15-də başlanan 22-ci Beynəlxalq film festivalında (Shanghai International Film Festival 2019) müxtəlif proqramlar üzrə ümumilikdə 3 mindən çox film təqdim olunacaq.




"Qızıl qədəh" mükafatı uğrunda əsas müsabiqənin beynəlxalq münsiflər heyətinə Türkiyədən tanınmış kinorejissor Nuri Bilge Ceylan, italyan rejissor və ssenarist Polo Cenoviz və digərləri daxildir. Mükafat uğrunda Çin, Yaponiya, İtaliya, Almaniya, Braziliya və digər ölkələrin filmləri mübarizə aparır.

Festival çərçivəsində Asiya ölkələrinin ayrıca kino sərgiləri, Asiya film panoramı, film salonu və "Asiyanın yeni istedadları" mükafatı uğrunda müsabiqə də təşkil olunacaq.

İyunun 24-dək davam edəcək festival çərçivəsində "Bir kəmər, bir yol" film həftəsi də keçiriləcək. Ötən il festival çərçivəsində "Bir kəmər, bir yol" film festivalı alyansı təsis edilmişdi. Bu il 7 yeni üzvün qəbul edilməsi ilə alyansda təmsil olunan ölkələrin sayı 33-ə çatacaq.

**SƏBİNƏ**

Azərbaycan Respublikası Mədəniyyət Nazirliyinin nəşri
MƏDƏNİYYƏT
Qəzet 1991-ci ilin yanvarından çıxır

**Baş redaktor:** Vüqar Əliyev

**Ünvan:** AZ 1012, Moskva pr, 1D.
Dövlət Film Fondu, 5-ci mərtəbə

**Telefon:** (012) 530-34-38 (baş redaktorun müavini)
431-57-72 (redaktor)
430-16-79 (müxbirlər)
511-76-04 (mühasibatlıq, yayım)
**E-mail:** qazet@medeniyyet.az
**Lisenziya №** AB 022279
**İndeks:** 0187

"Mədəniyyət" qəzetinin kompüter mərkəzində səhifələnib, "Azərbaycan" nəşriyyatında çap olunub.
**Tiraj:** 5150
**Sifariş:** 2060
**Buraxılışa məsul:** Fariz Yunisli
Yazılardakı faktlara görə müəlliflər cavabdehdir.
Qəzetdə AZƏRTAC-ın materiallarından da istifadə edilir.